*İkinci Fəsil*

# AZƏRBAYCAN DEMOKRAT FIRQƏSININ YARANMASI VƏ XALQ AZADLIQ HƏRƏKATININ QƏLƏBƏSI UĞRUNDA MÜBARIZƏ

**M.M. Çeşmazər**

## Azərbaycan Demokrat Firqəsinin (ADF) yaranması

Azərbayçanın demokratik ictimaiyyəti 1945-ci il avqust ayının əvvəlindən əməli surətdə Azərbaycanda yeni bir mütərəqqi siyasi partiya yarat-mağa başladı. Bu sahədə körülən işlərə İranda kom-munist və fəhlə hərəkatının körkəmli rəhbərlərindən və 1943-cü ildən Tehranda çıxan «Ajir» adlı qəzetin naşiri və redaktoru Seyid Çəfər Pişəvəri başçılıq edirdi.

1945-ci il sentyabrın 3-də (1324-cü il şəhrivər ayının 12-də) Azəobaycının bütün şəhər və qəsəbələ-rində Azərbaycan Demokrat Firqəsinin Müraciətna-məsi («Azərbaycan Demokrat firqəsinin müraciətnamə-si») nəşr oldu(1). Müraciətnaməni əhalinin müxtəlif sinif və təbəqələrinə mənsub olan körkəmli azadxah-lardan 77 nəfər imzalamışdı. Bu müraciətnamə vasi-təsi ilə Azərbaycanda yeni bir siyasi partiya—Azər-baycan Demokrat Firqəsi (Azərbaycan Demokrat fir-qəsi) yaradıldığı, həmin partiyanın məqsəd və vəzifə-ləri xalqa çatdırıldı.

Azəobaycan Demokrat Firqəsinin müraciətnamə-sində bir-biri ilə üzvi surətdə bağlı Azərbaycan xal-qının milli azadlığı və İranın siyasi üsul-idarəsi-nin demokratikləşdirilməsi məsələləri irəli sürül-müşdü.

Azərbaycan Demokrat Firqəsinin müraciətnamə-sində İran dövlətinin Azərbaycan xalqına etdiyi mil-li zülm hərtərəfli ifşa olunmuşdu. Orada qeyd edil-mişdi ki, İran dövlətinin siyasəti nətiçəsində Azəo-baycan xalqı bütün azadlıqlardan və ixtiyardan məh-rum edilmişdir. Azərbaycan xalqı öz zənkin, sərvət-li torpaqlarında yabançılar və əsirlər kimi, biçarə və yoxsul halda yaşamaqdadır [Bax: 77].

Azərbaycan xalqının milli azadlığı yolunda kö-rüləcək işlər müraciətnamədə 12 maddədən ibarət şüarlar şəklində verilmişdir. Orada «Bizim şüar-larımız bunlardır» başlığı altında yazılmışdır:

1. «İranın istiqlal və tamamiyyətini (ərazi büövlüyünü—*M. Ç.)* saxlamaqla bərabər Azərbaycana daxili azadlıq və mədəni muxtariyyət verilməlidir ki, özünün fərhənki (mədəniyyəti—*M. Ç.)* yolunda vo Azərbayçanın abadlaşması və tərəqqisi üçün ümumi məmləkətin adilanə qanunlarını közləməklə bərabər öz sərnəveştini (müqəddəratını—*M. Ç.)* tə'yin et-sin».

2. Bu məqsədi həyata keçirmək üçün çox tezliklo əyalət və vilayət əncümənlərini intixab edib (seçib—M. Ç.) işə başlamalıdır. Bu əncümənlər Əsas Qanun üzrə dövlət işçilərinin hamısının fəaliyyətini təftiş edib onların dəyişdirilməsi və başqa işə keçirilməsi barədə nəzərini bildirəçəkdir [Bax; *77].*

Müraciətnamənin dikər şüarlarında deyilirdi ki, partiya Azərbaycanda məktəblərdə dərslərin Azərbay-can dilində aparılması, Azərbayçanda darülfunun təş-kil edilməsi, mövcud fabrik-zavodların təkmili və yenilərinin yaranması; ticarətin kenişləndirilməsi və Azərbaycan əmtəələrinin xaricə çıxarılması üçün tranzit yollar axtarmaq, işsizliyi aradan qaldırmaq, Azərbaycan əhalisinin sayına körə İran məclisinə nü-mayəndə köndərməyə haqqı olmaq, şəhərləri abadlaş-dırmaq, Azərbayçanda yığılan verkilərin yarısından çoxunu Azərbaycanın öz ehtiyatlarına sərf etmək və s. uğrunda ciddi təşəbbüs köstərəcəkdir [Bax: 77].

Partiyanın müraciətnaməsində kəndli və torpaq məsələlərinə böyük əhəmiyyət verilmişdi. Orada köstə-rilirdi ki, kəndli ilə mülkədar arasında müəyyən bir hüdud tə'yin etmək və kəndlilərdən alınan qeyri-qanuni verkilərin qabağını almaq Demokrat Firqəsinin tə'xirəsalınmaz vəzifələrindəndir və ADF Azərbaycan kəndlilərinin əksəriyyətini torpaq və əkin alətləri ilə tə'min etməyə çalışacaqdır. Partiya dövlət tor-paqlarını və Azərbaycanı tərk edib qaçan mülkədar-ların torpaqlarını qeydsiz-şərtsiz kəndlilərin ix-tiyarına verməyi nəzərdə tuturdu.

Müraciətnamədə İrandakı mövcud diktatorluğa və zorakılığa əsaslanan mərkəziyyətin əleyhinə çıxılır və İranda mərkəziyyətin demokratik əsaslar üzrə qu-rulması tələb edilirdi. Müraciətnamədə yazılmış-dı: «Ayrı bir çarə yoxdur. Çox tez bir surətdə kərək qanuni-əsasinin icra və təkmili yolunda ciddən işo başlayıb, milli hökuməti (xalq hökumətini—*M. Ç.)* aşağıdan yə'ni xalq içindən və camaatın keniş küt-lələrinin ehtiyacı üzərində, əyalət və vilayətdə yaşa-yan xalqların xüsusiyyətləri əsasında qurmaq lazım-dır» [Bax: 77].

ADF-ni yaradanlar əsas məqsədlərini e'lan etmək-lə bərabər xalqı «təbəqə və sinfi fərqini nəzərə al-mayaraq» bu partiyaya üzv olmağa və milli azadlıq mü-barizəsində iştirak etməyə çağırırdılar. Bu çağırı: milli azadlıq mübarizəsinə daha keniş kütləlıəri cəlb etmək üçün nəzərdə tutulan düzkün taktika idi.

1945-ci il sentyabrın 5-də Azərbaycan Demokrat Firqəsinin orqanı olan «Azərbaycan» qəzetinin bi-rinci nömrəsi çapdan çıxdı. «Azərbaycan» qəzeti bi-rinci nömrəsindən başlayaraq Azərbaycan dilində çı-xırdı. 2—3 ay müddətində bu qəzetin hər nömrəsində bir-iki məqalə fars dilində verilirdi. Bu vasitə ilə qəzet bir tərəfdən Azərbaycan xalqının istəklərini, ADF-nin məram və məqsədini İranın bütün xalqlarına çatdırır, dikər tərəfdən İranda 40-dan çox azadxah qəzetin hökumət tərəfindən bağlandığı bir şəraitdə İran xalqlarının azadlıq hərəkatını müdafiə edirdi.

«Azərbaycan» qəzeti xalqa partiyanın məram və məq-sədini Azərbaycan dilində çox aydın və məçtiqi surət-də çatdırırdı. Partiya müraciətnaməsində olduğu ki-mi «Azərbaycan» qəzeti də konstitusiyada köstərilən əya-lət və vilayət əncümənlərinin təşkil edilməsinə çox-böyük əhəmiyyət verirdi. Qəzet yazırdı: «Biz bütün İranda həqiqi demokratik üsulun bərpasını, Azərbay-can xalqına daxili azadlıq və muxtariyyət verilməsi-ni, bütün məmləkətin adilanə qanunlarını közləməklə bərabər Azərbaycanın öz müqəddəratını özü tə'yin et-məsini istəyirik» [46, 5. IX.1945].

Azərbaycan Demokrat Firqəsinin yaranması ol-duqca mühüm, mütərəqqi və inqilabi hadisə idi. Müra-ciətnamənin nüsxələri Azərbaycanın hər yerinə kön-dərildiyi üçün xalq kütləəri teleqramlar vasitəsi lə Demokrat Firqəsina qoşulmaq arzusunu bildi-rirdilər [76, *3].* «Azərbaycan» qəzetinin birinci nöm-rəsində, partiya yaranandan iki kün sonra (1945-çi il sentyabrın 5-də) Təbriz, Marağa, Əhər, Çulfa va Mərənd şəhərlərindən köndərilmiş təbrik məktubları və te-leqramları dərc edilmişdi. Onları 93 nəfər imza-lamışdı. Qəzetin ikinci nömrəsində Ərdəbil, Makı, Təbriz, Marağa və Səlmasdan 220 nəfər partiyaya təb-rik köndərərək üzvlüyə qəbul olunmalarını xahiş edirdilər. «Azərbayçan» qəzetinin 3-çü nemrəsində (sentyabrın 12-də) müxtəlif şəhərlərdən köndərilmiş 23

təbrik məktubu çap olunmuşdu. Bu məktubları 550 nəfərdən çox adam imzalamışdı. Onlardan bir dəstəsi Makının bir neçə mahal və kəndinin 14 min nəf^ yaşlı əhalisi tərəfindən partiyaya təbrik köndərir və bu camaatın partiyaya qəbul olunmalarını xahiş edirdilər.

Azərbaycan Demokrat Firqəsinin yaranması xə-bəri kəndlilər arasında böyük həyəcana səbəb oldu. Sentyabrın 12-də Makının Babacik mahalında və sent-yabrın 16-da Urmunun Bəkuşluçay mahalının 25 kən-dində böyük mitinqlər oldu. Orada kəndlilər Azər-baycan Demokrat Firqəsinin müraciətnaməsini mad-də-maddə oxuyaraq tanış oldular. «Azərbaycan» qəzeti bu barədə xəbərdə yazırdı ki, müraciətnamənin kənd-lilərin əksəriyyətini torpaq və əkin alətləri ilə tə'-min etmək, qeyri-qanuni verkilərdən azad olmaq və kənd-lilərin dikər ehtiyaclarını tə'min etmək barədə olan 7-ci maddəsi kəndlilərin daha böyük şadlığına səbəb oldu. Onlar partiyanın yaranmasını ürəkdən alqış-layaraq onun məramını müdafiə edəcəklərinə söz ve-rirdilər [46, 19.1X. 19451.

Şübhə yox idi ki, burjuaziya milli azadlıq hərə-katını öz sinfi mənafeyinə uyğunlaşdırmağa və bu hə-rəkatın böyük qüvvəsi olan kəndliləri ez tə'siri al-tına salmağa çalışırdı. Fəhlə sinfi kəndlilərin burjuaziyanın nüfuzu altına düşməsinə razı ola bil-məzdi. O, milli azadlıq hərəkatının demokratik, bey-nəlmiləlçilik və inqilabi mahiyyətini dərinləşdir-mək uğrunda mübarizə aparmalı idi. Fəhlə sinfi xalq azadlıq hərəkatının fəal iştirakçısı və rəhbər qüv-vəsi olmalı idi. Bununla yanaşı Azərbaycan Demokrat Firqəsinin müraciətnaməsində irəli sürülən ümum-

demokratik və milli azadlıq tələbləri fəhlə sinfi-nin inqilabi mənafeyinə uyğun idi. Bütün bunlara kö-rə də İranın fəhlə sinfi və onun qabaqcıl dəstəsi olan İran Xalq Firqəsi (IXP) Azərbaycan Demok-rat Firqəsinin yaranmasını böyük rəğbətlə qarşıladılar.

1945-ci il sentyabrın 7-də (ADF yaranandan 4 kün sonra) İran Xalq Firqəsinin Azərbaycan Əyalət təş-kilatının Təbriz şəhərində keniş əyalət konfransı keçirildi. Bu konfransda.Azərbaycan Demokrat Par-tiyasının müraciətnaməsi oxundu və keniş müzakirə olundu.

Bir kün davam edən müzakirələrdən sonra konfran-sın yekdilliklə qəbul etdiyi qətnamədə deyilirdi: «... konfrans bu qərara kəldi: Azərbaycan Demokrat Par-tiyası Azərbaycan xalqının ehtiyaclarını doğru-düz-kün düşünüb ona yanaşmışdır» [37, 12.1X.1945] Son-ra qətnamədə İran dövlətinin Azərbaycan xalqına et-diyi milli zülm keniş surətdə təhlil olunmuşdur. Bü-tün bunları nəzərə alaraq, «...keniş konfrans qə't et-di: hizbe Tudeyi İranın Azərbaycan təşkilatı istər rəhbərlik və istərsə də təşkilat nöqteyi-nəzərincə hezbin (IXP-nin—*M. Ç.)* Mərkəzi Komitəsindən qət'e— rabitə edərək (əlaqəsini kəsərək—*M. Ç.)* bütün təş-kilatı ilə birlikdə Azərbaycan Demokrat Partiya-sına ilhaq olmağı qərar alır» [37, 12.1X.1945]. Kon-fransın bu qərarına uyğun olaraq İran Xalq Parti-yasının Azərbaycan Əyalət Komitəsi 1945-ci il sent-yabrın 12-də İran Xalq Firqəsinin Azərbaycanda olan vilayət və mahal komitələrinə; ilk partiya təş-kilatlarına və üzvlərinə öz yerlərində Azərbaycan De-mokrat Firqəsina birləşmələri haqqında köstəriş verdi. Böyük siyasi və təşkilati əhəmiyyətə malik olan bu birləşmə nəticəsində Azərbaycanda milli azadlıq və demokratiya uğrunda mübarizədə xalqın keniş təbə-qələrinin birliyi yarandı. Eyni zamanda ADF-nin təş-kilatları mübariz və təcrübəli üzvlərlə daha da möhkəmləndilər. IXP-nin Mərkəzi Komitəsi özü də ADF-nin yaranması və Azərbaycan xalqının bütün tə-ləblərini möhkəm dəlillərdə müdafiə edən bəyannamə verdi. IXP-nin MK-nın bu bəyannaməsində köstərilir-di ki, Azərbaycan Demokrat Firqəsi təzyiq, zülm və məhrumiyyətlər nəticəsində yaranmışdır. IXP-nin Mərkəzi Komitəsi Azərbaycanın daxili muxtariyyəti əyalət. əncüməni vasitəsilə tə'min edilməsini bütün İran xalqlarının arzu etdiyi iş adlandıraraq kös-tərirdi: «Biz inanırıq ki, azadlıq mübarizləri

olan azərbaycanlılar öz şüarlarını bütün İran xalqları-nın şüarı edəcəkdir» [78, 15.X.1945].

İran fəhlələrinin sinfi təşkilatı olan İran Fəhlə və Zəhmətkeşlər həmkarlar Ittifaqlarının Birləşmiş Mərkəzi Şurası (BMŞ) Təbrizə—S. C. Pişəvəriyə rəsmi məktub göndərərək Azərbaycan De-mokrat Firqəsinin yaranmasını təbrik etdi. Bu mək-tubu BMŞ-in sədri Rza Rusta və üzvlərdən biri Ib-rahim Məhzəri imzalamışdılar. İranın Tehran, Is-fahan, Əhvaz, Bəndərşah, Damğan, Semnan və dikər sə-naye mərkəzlərindən də Demokrat Firqəsina təbrik məktubları köndərilmişdi. Xuzistan əhalisi və xü-susilə cənub neft fəhlələri Azərbaycan demokratik və milli azadlıq hərəkatını böyük ruh yüksəkliyi ilə qarşıladılar.

Partiyanın müraciətnaməsi Azərbaycan Fəhlə və Zəhmətkeş həmkarlar Ittifaqının Əyalət Şurasının iclasında oxunaraq müzakirə edildi. Müzakirələrdən sonra iclas Azərbaycan fəhlələrinin müraciətnamədə-ki şuarların həyata keçirilməsi uğrunda mübarizəyə hazır olduğunu və ADF-nin siyasi rəhbərliyini qəbul etdiyini yekdilliklə qərara aldı.

Azərbaycan ziyalıları da ADF-nin yaranmasını böyük sevinclə qarşıladılar. Azərbaycanın ümumi inkişafı, mədəni tərəqqisi, Azərbaycan dilində təhsil məsələsi; kitab.və qəzet çıxarılması, Azərbaycanda darülfünunun açılması və sairə xalqla birlikdə ziYalıların da çox böyük arzusu idi.

Azərbaycanın fabrik-zavod sahibləri və müxtəlif sənətkarları Azərbaycanda sənayenin inkişafını ADF şüarlarının həyata keçirilməsində körürdülər. Bu şüarlar xırda burjuaziyanın və milli burjuazi-yanın da mənafeyinə müəyyən dərəcədə uyğun idi. Bun-dan başqa bu təbəqələr və siniflər üçün xalq hərəka-tını öz tə'sirləri altına almaq fikri də mühüm məsə-lələrdən biri idi. Bütün bunlara körə də onlar De-mokrat Firqəsina qoşulurdular. Tacirlər və dükan-çılar ölkənin inkişafı və xalqın yaşayışının yaxşılaşması nəticəsiadə ticarətin daha da rövnəPa-pacağını közləyirdilər.

İri tacirlərin, iri mülkədarların və ruhanilə-rin yuxarı təbəqəsinin ADF-yə münasibətinin özünə məxsus cəhətləri var idi. Iri tacirlərin və iri ruha-nilərin çox hissəsi eyni zamanda iri torpaq sahibləri idilər. Iri tacirlər bir tərəfdən par-tiyanın tranzit yollar axtararaq xarici və daxili ti-carəti kenişləndirmək, dikər tərəfdən isə torpaqla-rını əllərində saxlamaq məqsədilə ADF ilə razı-laşdılar. ADF mülkədarları İran hökumətindən və jandarmlardan ayırmaq taktikası yeridirdi. Bu məq-sədlə də ADF-nin müraciətnaməsində deyilirdi: par-tiya sə'y köstərəcəkdir ki, həm kəndlilər razı qalsın-lar və həm də mülkədarlar özlərinin kələcəyinə inam-la baxsınlar. Eyni zamanda müraciətnamədə qeyd olun-muşdu ki, Azərbaycanı tərk edib qaçan mülkədarların torpaqları qeydsiz-şərtsiz olaraq kəndlilərin ixtiya-rına veriləcəkdir [Bax: 77]. Bütün bunlara körə iri mülkədarların böyük əksəriyyəti Demokrat Firqəsina müsbət yanaşmalı oldular. ADF-nin bu taktikası müs-bət nəticə verdi. Iri tacirlərin, iri mülkədarların və eyni zamanda ruhanilərin içərisində vətənpərvərlik və tərəqqi naminə milli azadlıq hərəkatına qoşulanlar da az deyildi.

Azərbaycanın Qarapapaq və Şahsevən elləri də ADF-nin təşkilini alqışladılar. Sulduz mahalın-dan—Qarapapaq eli adından el başçıları hüseyn Pa-şa, Əmir Fəllah, Paşaxan Əhmədli, Quluxan Borça< lı və başqaları teleqramla ADF-yə təbrik köndərə-rək partiya üzvlüyünə qəbul olunmalarını xahiş edir-dilər [46, 18LX.1945].

Türkmənlər, ermənilər, aysorilər və başqa xalq-lar da ADF-nin yaranmasını

şadlıqla qarşıladılar.

ADF-nin yaranması münasibətilə Kürdüstanın Ma-habad şəhərində böyük mitinq və xalq kəzintisi ke-çirildi. Kürdüstan Demokrat Firqəsinin (KDP) 20 min nəfər üzvü tərəfindən Mahabad şəhərindən S. C. Pişəvərinin adına köndərilmiş məktubda yazılmış-dı: «Bu vasitə ilə son dərəcə iftixar və təmiz ürəklə, demokrat və azadxah partiyanın müqəddəs məramını təbrik edirik. Vütün azərbaycanlı qardaşlarımızın üzünə yeni dünya və azadlıq səhərləri açan bu məramı son damla qanımıza qədər müdafiə etməyə hazırıq» [46, 17.1X.1945].

İran irticasının son dərəcə şiddətləndiyi və «Qa-nuni-əsasi»nin tapdalandığı şəraitdə İranın milli burjua dairələri öz sinfi mənafelərinə uyğun olaraq demokratik hərəkatın «Qanuni-əsasi»ni bərpa etmək və ölkə iqtisadiyyatını inkişaf etdirmək barədə şüar-larına tərəfdar idilər. Lakin xalq hərəkatının in-qilabi mahiyyətini dərinləşdirəcək və onu qüvvətlən-dirəcək tələblərinə qarşı çıxırdılar. Milli bur-juaziyanın mənafeyini müdafiə edən, Tehranda çıxan «Azadəqan» qəzeti Azərbaycan xaqına öz milli hüquq-larını tələb etməyi və səbr etməyi məsləhət körürdü [79, 19.X1.1945]. «Ərəs» qəzeti ADF-nin müraciətnamə-sindəki torpaqların bölünməsi və təhsilin Azərbay-çan dilində keçirilməsi barədə olan maddələri İran istiqlaliyyətinin və ərazi bütövlüyünün əleyhinə he-sab edirdi [80,9X1945]. «İrane ma» və «Darya» qəzet-ləri də təhsilin, mətbuatın Azərbaycan dilində çıx-masına, mədəni-maarif işlərinə qarşı çıxırdılar [81.10.XP.1945].

ADF-nin yaranmasını İranın hakim sinifləri və imperialist dairələr düşmənçiliklə qarşıladılar. İranın XIV məclisində (III.1944—III.1946) istismar-çı sinifləri təmsil edən, lakin daima hakimiyyət üs-tündə bir-biri ilə çəkişən «əqəliyyət» və «əksəriyyət» nümayəndələri ölkədə demokratik hərəkatın daha da yüksəlişi müqabilində birləşərək vahid çəbhədə hərə-kət etdilər. Azərbaycandan XIV məclisə seçilmiş ir-ticaçı nümayəndələr səntyabrın 26-da bir bəyənnamə verdilər. Bu bəyənnamədə ADF-nin müraciətnaməsində köstərilən məqsədlər İranın Konstitusiyasına zidd, qeyri-qanuni və xoşakəlməz hay-küy adlandırıldı [82, 21]. Bəyənnaməni məçlisin «əksəriyyəti» və «əqəliyyə-ti» sırasından olan 11 nəfər imzalamışdı. Məcli-sin «əqəliyyət» nüümayəndələrindən Rza Hekmət-Sərdar Faxer (Şirazdan) və «əksəriyyət» nümayəndələrindən Cəlal Əbdəh (Tehrandan), Ədliyyə naziri və Xarici Işlər naziri də məclisin 27 sentyabr tarixli icla-sında Azərbaycan demokratları əleyhinə çıxış et-dilər. Onlar ADF-nin məqsədindən azərbaycanlıların xəbəri olmadığını iddia etdilər. Məclisin «əksəriy-yət» və «əqəliyyət» nümayəndələri Azərbaycanda demok-ratik hərəkata başlayanları şiddətli surətdə cəza-landırmağı tələb etdilər. Onlar hay-küy qopararaq tə-ləb edirdilər: «Bu əllər və dillər kəsilməlidir». Rza hekmət Azərbaycan demokratlarını məhv etməyə çağı-rırdı. hakim siniflərin nümayəndələri belə bir möv-qedə «əksəriyyət» və «əqəliyyət» ünvanlarını bir kə-nara ataraq əlbir oldular və irticaçı Möhsün Sədrin hökumətinə (Nazirlər Şurasına) səs verdilər [Bax: 83, 101].

Amerika-inkilis imperialist dairələrinin Azər-baycan demokrat hərəkatına münasibəti ilk növbədə İran hakim dairələrinin əməlində özünü göstərirdi. Eyni zamanda onlar ilk kündən demokratik hərəkatın məqsədini təhrif etməyə və bu təhrifdən öz müstəmlə-kəçilik siyasətləri üçün istifadə etməyə çalışırdı-lar. İranın irticaçı qəzetlərindən «Nəsime səba», «hur», «Keşvər», «Nedaye ədalət», «Didəban» və baş-qaları Azərbaycan demokratlarını «təcziyyətələb» (separatist) adlandırırdılar. Irticaçı mətbuat ADF-nin şüarlarını təhrif edərək onları İran is-

tiqlaliyyətinə zidd və qeyri-qanuni bir iş kimi kös-tərirdilər.

İranın azadxah mətbuatı irtica və imperialist dairələrin iftiralarını ifşa edirdilər. «Nəcate İran» qəzeti yazırdı: «Azərbaycan hərəkatı Azərbay-can xalqının ümumi fikir və iradəsi nəticəsində ya-ranmışdır. Azərbaycanın körkəmli möhtərəm şəxslə-rinin əksəriyyəti bu hərəkatda iştirak edir» [84, 6. 11.1946]. «Foruğe İran», «Darya», «Dad» və başqa qəzet-lər də Azərbaycan xalqını bu demokratik hərəkatı ilə yenə də İran xalqlarının azadlığı yolunda qabaqçıl olduğuna körə alqışlayırdılar. Tehranda çıxan «Nə-cate İran» qəzeti yazırdı: «Azərbaycanda Demokrat Firqəsinin təşkil edilməsi İran xalqının həqiqi məşrutiyyəti bərpa etmək, İran azadlığını əldə etmək və ərazi bütövlüyünü qorumaq üçün başlanmş hərəka-tın bir dalğasıdır» [84, 9X1945]. Azadxah mətbuat və şəxslər Azərbaycan xalqının tələblərinin İranın konstitusiyasına müvafiq, məntiqi və qanuni olduğunu qeyd edirdilər. «Zəban» jurnalı Tehran azadxahları-

nın fikrini ifadə edərək yazırdı: «Bu üsyanı qanuni sayırıq və hər cəhötdən ona ehtiram edirik. Ölkənin bütün azadxahları Azərbaycan demokratlarının mü-qəddəs məramına müvafiq və tərəfdardırlar» [85, 1945, №8, *30].*

## Azərbaycan Demokrat Firqəsinin rəhbər siyasi qüvvəyə çevrilməsi

ADF-nin Müraciətnaməsi nəşr olan kündən bu partiyanı yaradanlar xalq içərisində ke-niş təbliğat-təşkilat işi aparmağa başladılar. Bu-nun nəticəsində partiya çox sür'ətlə boy atdı. Təbriz-dən köstəriş közləmədən Ərdəbil, Urmu və Xoy vila-yətlərində; Azərşəhr, Əcəbşir, Şişəvan qəsəbələ-rində və dikər mahallarda partiya təşkilatları yarandı və bu yerlərdə ADF-yə üzv olmağa axın başladı.

1945-ci il sentyabrın 8-də partiya orqanında veril-miş e'lana körə sentyabrın 13-nə qədər, yə'ni partiya yarandıqdan sonra ilk on kündə ADF-yə üzv olanlar onu yaradanlar sırasında hesab edildilər [Bax: 46, 8.1X.1945]. həmin il sentyabrın 13-nə qədər təkcə Təb-riz şəhərində ADF-yə təqribən 10 min nəfər üzv ol-muşdu. Bundan əlavə IXP-nin Azərbaycan əyalət təş-kilatının 60 min nəfər üzvü də ADF-yə birləşmişdi. Beləliklə, bu partiyanı yaradanların sayı 70 min nə-fəri keçdi (o müddətdə Azərbaycının vilayətlərində ADF-yə üzv olanların sayı da buna əlavə edilməli idi). Bu da ADF-nin kütləvi bir partiya olduğunu göstərirdi. O vaxt ADF-nin müraciətnaməsi ilə tanış olan və onun şüarlarını qəbul edən hər bir şəxs (əl-bəttə oğrulardan, cani və irtiçaçılardan başqa) adı-nı partiya təşkilatına yazdırmaqla partiyaya daxil olurdu. Təkcə Təbriz şəhərində müraciətnama nəşr olunan künün sabahından, yəni 1945-ci il sentyabrın 4-də partiyaya kündə min nəfərə yaxın üzv yazılırdı [Bax: 86, *50).*

ADF-nin yaranması e'lan ediləndən az sonra parti-ya daxilində və ölkənin siyasi həyatında yeni vəziyyət yarandı. Birincisi, İran Xalq Firqəsinin Azərbay-çan Əyalət təşkilatının ADF-yə birləşməsi nəticəsində partiya üzvləri sırasında fəhlə və kəPdlilər sayca çox böyük üstünlük təşkil etdilər. Bundan baş-qa IXP-nin Əyalət təşkilatının ADF-yə birləşmək qərarı olduğu halda Azərbaycanda ayrı-ayrılıqda iki partiya var idi. Ikinçisi, ADF-nin müraciətnaməsu partiyanın «qapılarını» hamının üzünə açmışdı, la« kin partiya üzvlərinin hüquq, vəzifə və məs'uliy-yətləri müəyyən edilməmişdi. Bu vəziyyət ADF-nin təş-kilatca möhkəmlənməsinə və rəhbər parqiya kimi apa-rıcı olmasına imkan verməzdi. Üçüncüsü, İranın ir-ticaçı Möhsün Sədr hökuməti

azadlıq qüvvələri əley-hinə daha şiddətli hücuma hazırlaşırdı. Belə bir şəraitdə ADF siyasi hərəkət xəttinin, təşkilat quru-luşunun və mübarizə üsullarının müəyyənləşdirilmə-sini tezləşdirməli idi.

Şəraitin irəli sürdüyü bu tələbə uyğun olaraq 1945-ci il sentyabrın 13-də Təbrizdə ADF-ni yaradan-ların ilk konfransı oldu. Bu konfrans partiya iş-lərinə rəhbərlik etmək üçün 11 nəfərdən ibarət komi-tə (müəssislər komitəsi) yaratdı [Bax: 76, *11].* həmin komitəyə S. Ç. Pişəvəri(2) sədr və M. Ə. Şəbüstəri sədr müavini seçildilər. Konfrans 20 günə qədər ADF-nin birinci qurultayını çağırmağı qərara aldı.

1945-ci il oktyabrın 2-də Təbriz şəhərində Azər-baycan Demokrat Firqəsinin birinci qurultayı açıldı. Qurultay ərəfəsində ADF üzvlərinin sayı 100 min nəfərə çatmışdı [46, 4.1X.1946]. Partiyanın 38 vilayət, şəhər və mahal təşkilatı qurultaya 277 nəfər nümayəndə seçmişdi (237 nəfər həlledici və 40 nəfər məşvərətçi səslə). O cümlədən Təbriz şəhər partiya təşkilatından qurultaya 60 nəfərdə çoxnüma-yəndə köndərilmişdi. ADF qurultayının birinci ic-lasında həlledici səslə 207 nəfər, məşvərətçi səslə 40 nəfər nümayəndə iştirak edirdi.

ADF-nin birinci qurultayının kündəliyinə aşağı-dakı məsələlər daxil edilmişdi:

1 Məramnamənin müzakirəsi və qəbulu.
2 Nizamnamənin müzakirəsi və qəbulu.
3 ADF-nin Mərkəzi Komitəsinin və Mərkəzi Təftiş Komissiyasının seçilməsi.

ADF-nin birinci qurultayında partiya məramnamə-sinin müzakirəsi əsas yer tutdu. Müzakirə S. C. Pişə-vərinin çıxışı ilə başlandı. Məramnamə maddə-mad-də oxunub müzakirə olundu.

Partiya qurultayında məramnamənin 17-çi maddəsi-nin ikinçi hissəsi—Azərbayçanı qoyub qaçmış mülkə-dar torpaqlarının müsadirə olunaraq kəndlilərə ve-rilməsi qızğın mübahisəyə səbəb oldu. Bu müzakirənin bir hissəsi qurultay protokolunda belə qeyd edilir:

«17-ci maddədə çoxlu təkliflər edildi. Ağayi Ra-bit (Məhəmmədbağır Rabit, təbrizli, köhnə inqilabçı, ziyalı—*M. Ç.)* 30 il bundan əvvəl Demokrat Firqəsi-nin məramında torpaqları qismət etmək (bölmək—*M. Ç.)* var idi. Bəs indi nə cəhətə körə bu mövzu qeyd olun-mayıbdır.

Ağayi Haşimi (Mehdi haşimi, sarablı, azadxah mülkədar—*M. Ç.)*—Tehrana qaçan maliklərin əmlakı-nın (mülkədarların torpaqlarının—*M. Ç.)* təqsim olunması kəndçilər arasında ixtilaf vücuda kətirər. Yaxşıdır bu mülklərin (torpaqların—*M. Ç.)* kəlirlə-ri firqənin (partiyanın—*M. Ç.)* xərçlərinə sərf olun-sun.

Ağayi Səidi (Əhməd Səidi, urmulu iri mülkədar və tacir—*M. Ç.)*—Mən özüm malikəm, Urmu nümayəndəsi-yəm və qədim demokratlardanam. Mən torpağın bölünmə-sinə kəmali-meyl ilə razıyam. Amma təsəvvür edirəm

ki, Tehranda olan maliklərin əmlakının təqsimi ix-tilafın meydana kəlməsinə səbəb olar. Təklif edirəm ki, bu cür torpaqların kəliri ilə Kəşavərzi (kənd təsərrüfatı—*M. Ç.)* bankı təşkil olsun.

Ağayi Pişəvəri (S. C. Pişəvəri, Azərbaycan De-mokrat Firqəsinin sədri—*M. Ç.)*—indiki vəziyyətdə torpaq bölküsü(3) məsələsini meydana atmaq düzkün de-yildir. Bu fikir çox məntiqi və adilanədir. Amma bu-künkü şərait ona imkan vermir,.

Bu xüsusda bir neçə nəfər söhbət etmək istədi. Qə-rara alındı torpaq bölküsü məsələsi qalsın və təklif-lərə Rəyasət hey'əti baxdıqdan sonra təsvib və ya rədd edilməsi məramnaməyə əlavə olunsun...Bu barədə olan bəhslər künortadan sonrakı iclasa qaldı» (43, hş 29, *10).* 1945-ci il oktyabrın 3-də qurultayın 4-cü iclasında «17-ci maddə(4) əksəriyyətlə təsvib edildi» [43, iş 29, *11].* Qurultayın bu qərarı mütərəqqi bir iş idi. O, kəndliyə göstərirdi ki, ona torpaq pulsuz və əvəzsiz verilməlidir. Bu qərar kənddə mülkədar-kənd-Li münasibətinə ağır zərbə idi. O, mülkədar torpaq-larının toxunulmazlığı fikrini puça çıxartdı. Eyni zamanda kəndli hərəkatını daha da inqilabiləşdir-di. Bununla yanaşı bu qərar məhdud idi. Qurultayın müzakirəsi və tərkibi göstərirdi ki, partiya hərəkata tərəfdar olan mülkədar nümayəndələrini də öz sıra-larına qəbul etdiyi bir şəraitdə o, torpaq məsələsin-də köklü qərar irəli sürə bilməzdi.

ADF-nin birinci qurultayında ayrı-ayrı maddələ-rin müzakirəsindən sonra məramnamə bütövlükdə səsə

qoyuldu və yekdilliklə qəbul olundu. Bütün nümayəndə-lər onu təsvib etdilər.

Qurultay məramnamə barədə verilən təkliflərə də baxdı və qəbul etdi. O cümlədən istibdad əlaməti olan heykəllərin yıxılması, partiyanın bütün işlə-rinin Azərbaycan dilində olması və sairə təklifləri köstərmək olar [Bax: 43, iş 29, *//—12].*

Azərbayçan Demokrat Firqəsinin nizamnaməsi də müzakirələrdən sonra 1945-ci il oktabrın 4-də qurul-tay tərəfindən qəbul edildi.

1945-ci il oktyabrın 4-də partiya qurultayının al-tıncı içlasında açıq səsvermə yolu ilə Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsi və Mərkəzi Təftiş komissiyası seçildi. Qurultay ADF-nin Mər-kəzi Komitəsinə 42 nəfər(5) və ADF-nin Mərkəzi Təf-tiş komissiyasına 12 nəfər üzv seçdi(6).

ADF-nin birinçş qurultayında partiyakın takti-kası da müzakirə olunmuş və müvafiq qərar qəbul edilmişdir. Qurultay bir daha təsdiq etdi ki, ADF-nin İranın azadxah təşkilatları və partiyaları ilə dostluq əlaqəsi davam etdiriləcəkdir [Bax: 43, iş 29, 131. ADF-nin qurultayı Azərbaycanda kəndlilərlə mül-kədarlar arasında saziş lazım olduğunu köstərərək kəndlərdə baş verən özbaşınalığı pislədi. ADF qu-rultayda e'lan etdi ki, xalqın asayişinin möhkəm tə-rəfdarıdır və dincliş pozanlarla mübarizə apa-raçaqdır QBax: 43, iş 29, *13).* Bu taktika partiyaya kə-ləcək mubarizoyo hazırlaşmağa imkan yaradırdı. Bu« na körə də çox duzkün idi. Partiya qurultayının qəbul etdiyi qərarın birində deşlirdi: «...Tehrana e'tioaz teleqramı köndərmək və Tehran hökumətinin (İran hökumətinin—*M. Ç.)* irticaçı işlərinə e'tiraz etmək qurultay tərəfindən təsvib olmadı. Ona körə ki, bu vaxta qədər Tehran bu kimi işlərə biqeyd qalmışdır» [43, iş 29, *13).* Qurultayın yeritdiyi bu taktika tama-milə yeni və inqilabi taktika idi.

ADF-nin birinci qurultayı xalqın və demokratik dairələrin diqqətini özünə cəlb etmişdi. İran şəhər-lərindən və Azərbaycanda partiya təşkilatlarından, eləcə də xaql tərəfindən qurultaya köndərilən «...təb-rik teleqramlarını və məktubları imza edənlərin sa-yı on min nəfərdən çox idi» [86, *74].* ADF-nin üç kün davam edən birinci qurultayı 1945-ci il oktyabrın 4-də öz işini müvəffəqiyyətlə qurtardı.

ADF-nın birinci qurultayının Azərbaycanda mil-li azadlıq və demokratik hərəkat tarixində çox böyük əhəmiyyəti var idi. Qurultay ADF-nin məramnaməsini və nizamnaməsini qəbul edərək

ictimai həyatın bütün sahələri üzrə partiyanın hərəkət xəttini və təşkilat quruluşunu müəyyən etdi. Qurultay partiyanın rəhbər orqanlarını seçdi. Nəhayət qurultayın keçirilməsi ilə İran Xalq Firqəsinin Azərbaycan təşkilatının ADF-yə birləşməsi başa çatdı. Beləliklə, qurultay ADF-ni Azərbaycanda milli azadlıq hərəkatına rəh-bərlik edəcək yekanə səlahiyyətli təşkilat və siyasi mərkəz kimi rəsmiləşdirdi.

Azərbaycan Demokrat Firqəsinin məramnaməsi İranın və Azərbaycanın iqtisadi, ictimai və milli xüsusiyyətlərini, tarixi şəraiti nəzərə alaraq par-tiyanın ən yaxın vəzifələrini müəyyən etmişdir.

Məramnamədə beynəlxalq şəraitə qiymət verilərək köstərilirdi ki, köhnəlmiş və çürümüş ictimai quru-luşun məhv olması dövrü kəlib çatmışdır. Demokra-tik qüvvələrin faşist Almaniyası üzərində qələbə çal-ması Şərq xalqlarının da azadlıq və demokratik döv-lət haqqındakı ümidlərini kücləndirdi. Məramnamədə deyilirdi: «İndi də İranda həqiqi azadlıq, istiqlal və demokratik üsul-idarə yaratmaq Azərbaycan xalqı-nın ali hədəfidir» [87, 31. ADF-nin məramnaməsində irtica və imperializm əsarətindən xilas olmaq üçün ölkənin siyasi, iqtisadi və mədəni həyatını zamanın tələbinə körə qurmaq, köhnə ictimai münasibətləri ke-kündən dəyişmək tələb olunurdu. Məramnamədə köstə-rilirdi ki, irtiça məmləkətimizi nuh əyyamından qal-ma vəziyyətdə saxlamağa cəhd edir. Mürtəçe ünsürlər xalqa hücuma keçib onun demokratik hərəkatını boğmaqdadırlar. «Bu mürtəce siyasət əleyhinə ciddən üs-yan edilməlidir» [87, *8].*

ADF-nin məramnaməsində köstərilirdi ki, istibda-dın devrilməsindən 4 il keçməsinə baxmayaraq Azər-baycan, kürd və başqa xalqlara olunan şiddətli mil-li zülm, yenə də davam edir. Sonra məramnamədə deyi-lirdi: «Biz həyatımızı həqiqi demokratik üsul daxi-lində azad yaşamaq əsası üzrə qurmalıyıq» [87, <§].

Partiya məramnaməsində beynəlxalq vəziyyətin yarat-dığı fürsətdən istifadə etməyə çağırırdı. Bunun üçün təbəqə, sinif, millət və dil ayrılığını nəzərə alma-yaraq demokratiya və azadlıq idealları uğrunda bütün vətəndaşların birləşməsi və hər cür mübarizəyə ha-zır olması zəruri sayılırdı. Bu taktika milli azad-lıq və demokratiya uğrunda mübarizədə daha keniş ic-timai qüvvələri birləşdirməyi və Azərbaycanda İran hökumətinin istinad edə biləcəyi qüvvələri onun əlin-dən almağı nəzərdə tuturdu.

ADF məramnaməsində İranın ərazi bütövlüyünü və istiqlaliyyətini müdafiə etməklə bərabər, Azərbayca-nın siyasi və milli tərəqqisini sür'ətləndirmək məq-sədi ilə əyalət və şəhər əncümənləri seçkisinə yuban-madan başlanması, Azərbaycana İran daxilində mə-həlli muxtariyyət və öz həyatını istədiyi kimi qurmaq üçün keniş hüquqlar verilməsi tələb edilirdi [87, *10].* Partiya mərəmnaməsində köstərilirdi ki, xalqa keniş demokratik azadlıqlar verilməli və müstəbidlər ha-kimiyyəti məhv edilməlidir. Məramnamənin b-cı mad-dəsində deyilirdi: «Ümumi səsvermə yolu ilə həqiqi xalq demokratik dövləti yaradılmalıdır» [87, *10].* ADF məramnaməsində iqtisadiyyat sahəsində dövrünü keçirib çürümüş iqtisadi üsulun müasir və ali iqti-sadi-ictimai quruluşla əvəz olunması tələb olunurdu. Partiya məramnaməsi Azərbaycanda iqtisadiyyat, səhiy-yə, mədəniyyət, mətbuat, məhkəmə işləri və başqa sahə-lərdə xalq kütlələrinin xeyrinə əsaslı demokratik islahat həyata keçirilməsini bir vəzifə olaraq qar-şıya qoyurdu. Eyni zamanda bu islahatın konkret yol-ları köstərilirdi. Məramnaməyə partiyanın ilk müra-ciətnaməsində (3.IX. 1945) kəndlilər üçün irəli sürül-müş bütün tələblər, o cümlədən: kəndlilərin torpaqla tə'min olunması daxil edilmişdi. Məramnamədə fəh-lələrin tələblərinə xüsusi və keniş yer verilmişdi. ADF bütün ölkədə 8 saatlıq iş künü tətbiq olunması-nı, mütərəqqi əmək və ictimai sığorta qanunları ve-ilməsini və fəhlələrin

dikər sosial-iqtisadi ehti-yaclarının tə'min olunmasını tələb edirdi [87, *13].* Məramnamədə Azərbaycanda maarif və mədəniyyətin Azərbaycan dilində hərtərəfli inkişaf etdirilməsi xüsusi qeyd olunmuşdur.

1945-ci ilin yayında İranda qaraküruhçu irtica diktaturası **baş** qaldırdı. Belə bir şəraitdə ADF İranın demokratik qüvvələrini aşağıdan xalq haki-miyyəti yaratmaq və milli məsələdə inqilabi proqram-la çıxış etmək yolunu irəli sürdü. ADF-nin bu hərə-kət xətti dahi Leninin «Biz sosializm uğrunda inqi-labi mübarizəni, milli məsələdə inqilabi proqram ilə əlaqələndirməliyik» [88, *68}* tə'liminə əsaslanırdı. Milli məsələ barədə ADF-nin məramnaməsində deyi-lirdi: «İran məmləkəti daxilində yaşayan hər bir millətin muxtariyyəti və öz müqəddəratını tə'yin etmək hüququ əyalət və vilayət əncümənləri vasitəsi ilə tə'-min edilməlidir» [87, *19].* Beləliklə, ADF İranın dövlət quruluşunu inqilabi və demokratik əsasda ye-nidən təşkil etməyi irəli eürürdü.

ADF milli proqramını hazırlayarkən marksizm-leninizm tə'liminin «milli məsələ və milli azadlıq hərəkatı fəhlə sinfinin inqilabi hərəkatının ümumi mənafeyinə tabe olmalıdır» prinsipini əldə rəhbər tuturdu. Buna əsasən də ADF Azərbaycan millətino İran dövləti daxilində muxtariyyət və keniş hüquqlar tələb edir, Azərbaycanda xalq hakimiyyəti yaradılması zərurətini irəli sürür, ilk növbədə fəhlə və kəndli-lərin mənafeyini müdafiə edir, Azərbaycan millətinə olunan şiddətli milli zülmün tamamilə aradan qal-dırılması və İranda demokratik quruluş yaranması uğrunda mübarizə aparırdı. Ona körə də ADF İranda milli məsələni, o cümlədən Azərbaycan millətinin azadlıq hərəkatını İran dövləti daxilindəki prob-lem hesab edir və bu məsələni İran daxilində həll etmək siyasətini yürüdürdü. ADF tərəfindən milli məsələnin bu cür qoyulması çox doğru idi və milli azadlıq uğrunda mübarizəyə daha çox sinif və təbəqə-ləri cəlb etməyə imkan verirdi.

ADF xalq hakimiyyəti qurmaq xatirinə Azərbaycan-da müxtəlif sinif və təbəqələr arasında baş verən ixtilafları saziş və qanun vasitəsi ilə həll etməyi

irəli sürürdü.ADF sinfi mübarizənin vaxtsız və ha-zırlıqsız kəskinləşməsi əleyhinə çıxırdı. Eyni za-manda ADF qəti bildirirdi: «Biz, hərkiz millətimi-zin əksəriyyətini təşkil edən zəhmətkeşləri unuda bilmərik. Onların mənafeyini daha düzkün bir surət-də tə'min etmək üçündür ki, biz milli tərəqqi və demok-ratik bir rejim yaratmaq şüarı ilə çalışırıq» [46, 30, X.1945].

Azərbaycan Demokrat Firqəsinin nizamnaməsi vahid və mərkəzləşmiş partiya təşkilatının əsası-nı müəyyən etdi. Nizamnamə demokratik mərkəziyyət prinsipinə əsaslanaraq partiya daxilində təşkilat, iradə və intizam birliyi yaratmağa xidmət edirdi. Nizamnamə üzrə ADF təşkilatlarında aşağıdan yu-xarı vaxtaşırı olaraq hesabat və seçkilər keçiril-məsi nəzərdə tutulurdu. Nizamnamədə köstərilirdi ki, partiyanın əsası ilk partiya təşkilatlarından iba-rətdir. ADF nizamnaməsində partiyaya qəbul məsələ-sinə çox ciddi yanaşılırdı. Köstərilirdi: a) parti-yanın məramnaməsini qəbul edib, nizamnaməsinə tabe olanlar; b) azı 20 yaşa malik olanlar; v) partiyanın ilk təşkilatlarının birində ardıcıl iştirak edən və partiya məs'uliyyəti daşıyanlar partiyaya qəbul oluna bilərlər [87, 7]. Nizamnamə partiya üzvündən partiya tərəfindən verilən tapşırıqları yerinə ye-tirməyi, hər ay üzvlük haqqı verməyi tələb edirdi [Bax: 87, *2—3).* ADF nizamnaməsində partiya üzvlərinin hü-ququ məhdud idi. Bir sıra hallarda mərkəziyyətə üs-tünlük verilirdi. Bütün bunları ADF-nin sinfi tər-kibinin müxtəlifliyi, milli-azadlıq hərəkatının həlledici mübarizə ərəfəsində olması və partiyanı irtica akentlərindən qorumaq zərurəti ilə izah etmək olardı.

Qurultaydan sonra ADF birinci növbədə özünün ilk partiya təşkilatlarını yaratdı. Partiya üzvləri bu təşkilatlarda birləşdilər. ADF dahi Leninin par-tiya təşkilatı haqqında tə'limə uyğun olaraq

fabrik-zavodlarda, dəmiryol qovşaqlarında və dikər iş yer-lərində ilk partiya təşkilatları yaranmasına daha beyük əhəmiyyət verdi. ADF-nin təşkilatları yeni üzv-ləri nizamnaməyə əsasən, ilk partiya təşkilatları və məhəlli komitələrin təsdiqi ilə qəbul etməyə başladı. 1945-ci il noyabrın əvvəllərinə qədər ADF-nin bütün təşkilatlarında partiya konfransları keçirildi. Bu partiya seçkilərinə qədər ADF-nin Ərdəbil, Urmu və Mərənd vilayət komitələrində iri mülkədarlar və iri tacirlər əksəriyyət təşkil edirdilər. Onlar par-tiyanın siyasi və təşkilat işlərini öz mənafelərinə uyğunlaşdırmağa çalışırdılar. ADF-nin Təbriz təş-kilatı da şəhər komitəsinin nəzarətindən çıxmaq təh-lükəsinə düşmüşdü. ADF-nin Mərkəzi Komitəsi və vi-layət konfransları bu vəziyyətin qarşısını aldılar. Təbriz şəhər komitəsinə, vilayət və mahal partiya ko-mitələrinə ADF-nin məramnaməsini, milli azadlıq hərəkatının inqilabi prinsiplərini ardıcıl olaraq közləyən şəxslər seçildilər.

ADF yaranana qədər olan 40 il ərzində Azərbaycan iki dəfə inqilabi hərəkatın mühüm mərkəzinə çev-rilmişdi. Bu müddətdə İran sosial-demokrat partiya-sı (1905—1912), Azərbaycan Demokrat Firqəsi (1917—1920), İran Kommunist Firqəsi (1920—1939) və xüsusilə 1941 — 1945-ci illərdə İran Xalq Partnya-sı Azərbaycanda kütlələr arasında beyük təbliğat, təşviqat işi aparmış, inqilabçı kadrlar hazırla-mış və xalqın azadlıq uğrunda mübarizəsini təşkil etmişdi. Bütün bunlara körə ADF yaranandan sonra siyasi, təşkilati və inqilabi yetkinlik və inkişaf mərhələlərini çox böyük sür'ətlə keçdi. ADF yaranan-dan az sonra onun qarşısında Azərbaycanda milli azad-lıq və demokratiya hərəkatına rəhbərlik etmək kimi mühüm vəzifə dururdu. ADF bu vəzifəni həyata keçir-məkdə Sov.IKP-nin, dikər kommunist və fəhlə partiya-larının inqilabi iş təcrübələrindən keniş istifadə edirdi. ADF mübarizənin baş xətti kimi İran daxi-lində Azərbaycana muxtariyyət verilməsini, elkədə ho-qiqi xalq demokratik dövləti yaradılmasını, əyalət və vilayət əncümənlərd təşkil olunmasını özünün tə'-xirəsalınmaz vəzifələrindən hesab edirdi. hərəkatın bu baş xəttiniğq düzkünlüyünü, xalqın və ölkənin mə-nafeyinə xidmət etdiyini İran xalqları və İranın azadxah dairələri də təsdiq edirdilər. Azərbaycan xal-qı ADF-nin bu baş xəttinin həyata keçirilməsi üçün milli azadlıq mübarizəsində fəal eurətdə iştirak edirdi. Partiya mübarizənin baş xəttində əyintilərə yol vermirdi. Bə'ziləri ADF daxilində və ondan xa-ricdə muxtariyyət və Azərbaycan dili məsələsindən sərf-nəzər olunmasını və mədəni ixtiyarla kifayət-lənməyi təklif edirdilər. Bə'ziləri də bütün tor-paqların bölünməsini və sərmayədarların ləğv olun-masını təklif edirdilər. ADF bu sağ və sol təmayül-lərə qarşı qəti mübarizə aparırdı. Partiyanın or-qanı baş xətti müdafiə edərək yazırdı: «Şüarları islah etmək mümkündür, lakin onların əsasını və prinsipini dəyişmək olmaz» [46, 28.1X, 1945].

ADF baş xəttin həyata keçirilməsi taktikasını da müəyyən etmişdi. Partiya məramnaməsində deyilirdi: «Biz vətənimizin tale və müqəddəratını öz kücümüz və iradəmizlə tə'yin etməliyik» [87, *8]*. Deməli, Azər-baycan xalqı İran hökumətindən icazə közləmədən, öz qüvvəsi və qərarı ilə Azərbaycanda milli və demokra-tik quruluş yaratmalı idi. ADF çox aydın və qəti bildirirdi: «Biz milli azadlığı tə'min etmək üçün hər kəsdən fədakarlıq tələb edirik. Biz araya çıxan ixtilafları saziş yolu ilə həll etməyi ciddi və la-zımlı bir mövzu bilirik. Mübarizə lazımdır. Lakin o, milli azadlıq və vətənin tərəqqisi yolunda aparıl-malıdır» [46, 18.1X.1945]. ADF bu taktikası ilə İran hökumətinin siniflər arasında toqquşma yaratmaq pla-nını pozdu və milli azadlıq uğrunda mübarizədə daha çox təbəqələri birləşdirməyə müvəffəq oldu.

ADF xalq kütlələrini demokratik çevrilişin zə-ruri olduğuna inandırdı. Azərbaycan xalqının tələb-ləri partiyanın ilk müraciətnaməsi, məramnamə-si, Azərbaycan xalq konqresinin qərarları və bə-yannaməsi ilə xalqa çatdırılmışdı. ADF bu sənəd-ləri İran şahına, İran məclisinə və İran hökuməti-nə köndərmiş, eləcə də ABŞ, Inkiltərə, SSRI və Fransa

dövlətlərinə də çatdırmışdı.

Bu sənədlərlə yaxından tanış olduqdan sonra Ira-nın azadxah mətbuatı yazırdı: Azərbaycan xalqının tələbləri İran konstitusiyasına uyğun və qanunidir. Azərbaycan xalqı İranın həyata keçirilməyən məşru-tə üsul-idarəsini ehya etmək üçün əməldə mübarizəyə başlamışdır [84, 5.XN. 1945]. Tehranda nəşr olunan «Dad» qəzeti əfkardi-ümumi adından hökumətdən tələb edirdi: «...Demokrat Firqəsinin qanuni tələblərinə qulaq asın» [89, 21.XI. 1945]. Lakin İran məclisi və İran hökuməti Azərbaycan xalqının tələblərini eşit-mədi. M. Sədr hökuməti əyalət və vilayət əncümənləri-nin təşkil olunmayacağını da rəsmi surətdə e'lan et-di. İranın XIV məclisi isə İran konstitusiyasının ziddinə olaraq XV məclis seçkilərinin tə'xirə salın-ması haqqında 1945-ci il oktyabrın 11-də qərar çı-xartdı. ADF yarandığı gündən İran hökuməti Azər-baycanda irticaçıları birləşdirməyə daha çox sə'y köstərdi. hökumət Urmu şəhərində elə bir demokrat Firqəsi yaratmaq istəyirdi ki, o, Təbrizdəki siyasi mərkəzə tabe olmasın və muxtariyyət. Azərbaycan dilin-də maarif və mədəniyyət tələbləri ilə çıxış etməsin. hökumət ADF əleyhinə kizli teleqram imzaladaraq Londona—xarici işlər nazirləri şurasına göndərməklə də təfriqə işi aparırdı.

İran hökumətinin Azərbaycanda demokratik hərəkat əleyhinə kördüyu işlərdə bir sıra irticaçı mülkədar, tacir və qulluqçu kizli şəkildə iştirak edirdi. hö-kumət çoxlu miqdar ərzağı Azərbaycandan daşıdaraq burada sün'i qəhətlik yaratmağa çalışırdı. Azərbay-can tacirlərinin 15 milyon tümənə yaxın pulunu Teh-ran banklarına köçürərək Azərbaycan ticarətində bö-yük çətinlik yaratdı. Azərbaycan Demokrat Firqəsi Yaranandan az sonra İran hökuməti Marağa (10.1X. 1945-ci il) və Ərdəbil (2O.X.1945-ci il) şəhərlərində hərbi vəziyyət e'lan etdi. Marağada partiyanın fəal üzvü və şəhər idarəsinin rəisi Məhəmməd hüseyn Rah-vər terror nəticəsində öldürüldü. Azərbaycan xalqının dəfələrlə e'tirazına baxmayaraq, 1945-ci il sentyabrın 12-də qatı irticaçı S. M. Fərrux Azərbaycana vali tə'-yin edildi. həmin künlər hökumət başçısının, hərbi nazirin və İran qoşunu baş qərarkahı rəisinin iş-tirakı ilə olan iclas ADF-nin komitə üzvlərinin Təbrizdə həbs edilməsini, kizli və təÇili Tehrana aparılmasını qərara aldı [Bax: 90, 1967, № 719, *12— 13].* Bu barədə hökumətin Azərbaycandakı diviziya ko-mandanlığına xüsusi əmr də verildi. hökumət şahse-vən elinin bə'zi irticaçı başçılarını da demokrat-larla vuruşmaq üçün silahlandırdı. M. Sədr və I. hə-kimi hökumətləri irticaçı mülkədarları silahlandırdılar. Onlar bu mülkədarların qeyri-qanuni istək-lərini yerinə yetirmək üçün jandarmlara keniş ixti-yarat verdilər. Irticaçı mülkədarlar və jandarmlar kəndlilərin üzərinə hücuma keçdilər. Bu haqda «Azər-baycan» qəzeti yazırdı: «Indi ölkəmizdə heç kəs üçün əmniyyət yoxdur. Dövlət silahı ilə təchiz olunan jan-darmlar özlərini kəndlərdə mütləq hakim bilir...Azad-xah və firqə üzvü olduğu üçün kəndlinin közünü çıxa-rır, başını kəsir, dərisini soyur, dodağını kəsdi-rir, öküzünü-inəyini aparır, qarət edirlər» 146, 16.X1. 1945]. hökumət bu yolla kəndliləri üsyana təhrik etmək istəyir, bu yolla özünə bəhanə hazırlayırdı. Lakin ADF kəndlilərin vaxtsız çıxışına, imkan ver-mədi, xalqı, o cümlədən kəndliləri qəti mübarizə üçün mütəşəkilliyə çağırdı. O, jandarmların cinayətləri haqqında kəndlilərin şikayətlərini vaxtlı-vaxtında ədliyyə orqanlarına və mətbuat vasitəsilə xalqa çatdı-rırdı. ADF hökumət mə'murlarının kəndlərdə törət-dikləri faciələr haqqında sonuncu dəfə 1945-ci il noyabrın birinci yarısında böyük dövlətlərin Təbriz-də olan nümayəndələrinə və İran hökumətinin səlahiy-yətli idarələrinə açıq məktub köndərdi. ADF cinayət-karlarla mübarizə ilə yanaşı kəndlərdə partiya təş-kilatlarını da mehkəmləndirirdi.

Bu zaman Azərbaycan xalqı yəqin etmişdi ki, İran dövləti ona azadlıq və muxtariyyət verməyəcəkdir. Mil-li azadlıq və demokratik quruluşu xalq özü yaratma-lıdır. İran hökuməti Azərbaycanda xalq hərəkatının qarşısını ala bilmirdi. O künlər «Azərbaycan» qəze-ti yazırdı:

«Mərkəzi hökumət məmləkəti sülh və asa-yiş yolu ilə idarə etməyə qadir deyildir» [46, 26.X. 19451. İran hekuməti Tehrandan Azərbaycan xalqı əley-hinə böyük qoşun hissəsi köndərməyə hazırlaşırdı.

## ADF-nin xalq hakimiyyəti uğrunda siyasi və silahlı mübarizəyə rəhbərliyi

İran hökuməti ilə Azərbaycan əhalisi arasında münasibət son dərəcə keskinləşdiyi bir vaxt-da 1945-ci il noyabrın 8-də (1324-cü il aban ayının 17-də) Təbriz şəhərində Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin ikinci keniş plenumu oldu. Plenumda ADF MK-nın sədri S. C. Pişəvəri «ümumi siyasi vəziyyət və partiyanın kündəlik şüarları» haq-qında mə'ruzə etdi. Plenumda əyalət və vilayət əncümən-ləri, İran məclisinə seçkilər və partiya təşkilatla-rının vəziyyəti barədə də mə'ruzələr edildi ADF MK-nın ikinci plenumu qərarlarının, xüsusilə «Ümumi si-yasi vəziyyət və firqənin kündəlik şüarları» haqqında qərarın Azərbaycanda milli azadlıq və demokratik hə-rəkat tarixində böyük inqilabi əhəmiyyəti olmuşdur. hə-min qərarın üçüncü maddəsində deyilirdi: «Əyalət və vilayət əncümənlərinin seçkisini xalqın öz kücü ilə

başlamaq lüzumunu qeyd edib, Komitə (ADF-nin Mər-kəzi Komitəsi—*M. Ç.)* yaxın bir zamanda bütün Azər-baycan xalqı tərəfindən seçilən nümayəndələrdən bö-yük bir konfrans təşkil etməlidir». Köstərilən qəra-rın altıncı maddəsində isə deyilirdi: «Kəndlərdə qanunsuz olaraq kəndlilərə hücum edən jandarmların qabağı camaatın qüvvəsi ilə alınsın» [75, *292].* Aydın idi ki, xalq jandarmların qarşısını silahla almaq istədikdə jandarmlarla, irticaçı mülkədarlarla və İran qoşunları ilə vuruşmalı olacaqdı və hadisələ-rin kedişi xalqın ümumi silahlı mübarizəsinə çata-caqdı. Bu qərarın arxasında ciddi təşkilat tədbir-ləri durmuşdu. Mərkəzi Komitənin plenumu ərəfəsində ADF hətta çox kizli şəkildə, kiçik də olsa silahlı dəstələr yaratmış və xalqın silahlı üsyanını təş-kil etmək üçün çox diqqətli plan hazırlamışdı [Bax: 91, *1—3;* və 46, 31.1.1946]. ADF MK-nın 8—9 noyabr ta-rixli plenumu vilayətlərdə partiya təşkilatlarının möhkəmləndirilməsinə də köstəriş verdi. Partiyanın orqanı Mərkəzi Komitənin plenumunun qərarlarını izah edərək yazırdı: «Quruluş dövrü xatimə tapıb, keniş təbliğat və ə m ə l d ö r ü başlamışdır Bu kündən e'tibarən partiya s i y a s i q ü d r ə t kəsb etmək yolunda mübarizə edir» [46, II—XI. 1945]. ADF

bu məqsədinə inqilabi çevriliş vasitəsi ilə çat-maq istəyirdi. Bu zaman ADF fəhlələrin, kəndlilə-rin, ümumiyyətlə xalqın böyük əksəriyyətini öz rəh-bərliyi altına almaqla artıq həqiqi siyasi qüvvəyə çerilmişdi.

Dahi Lenin yazmışdır ki, «Inqilabi şərait olmadan inqilab mümkün deyildir. heç də, hər bir inqilabi şərait inqilabla nəticələnmir» [92, *239].* V. I. Lenin tərəfindən inqilabi şəraitin müəyyən edilmiş başlıca əlamətləri 1945-ci ilin sonunda Azərbaycanda özünü köstərmişdir: İranın hakim sinifləri Azərbaycan əhalisi üzərində öz hökmran-lıqlarını olduğu kimi saxlaya bilmirdilər. Onlar silaha əl atmışdılar. Azərbaycan xalqı irticanın hakimiyyəti altında yaşamaq istəmədiyi kimi Ira-nın istismarçı hakim sinifləri də ölkəni köhnə üsulla idarə edə bilmirdilər. Xalqın keniş kütlə-lərinin iqtisadi-ictimai vəziyyəti çox-çox pisləş-mişdi. Irticanın zülmü dözülməz olmuşdu. Bütün bu vəziyyət Azərbaycan əhalisinin böyük əksəriyatində, xü-susilə zəhmətkeş

kütlələrdə böyük inqilabi fəallıq yaratmışdı.

Mə'lumdur ki, hər bir inqilabın başlıca məsələsi hakimiyyət məsələsidir. Elmi kommunizmin baniləri K- Marks və F. Enkels hakimiyyət uğrunda mübarizədə silahlı üsanın proletariatın ən yüksək mübarizə for-ması olduğunu köstərmişlər.

ADF xalqın silahlı mübarizəsini təşkil etməkdə marksizm-leninizm tə'limini və Sov.IKP-nin inqilabi iş təcrübəsini milli azadlıq hərəkatına bacarıqla tətbiq etmişdir. Böyük Oktyabr sosialist inqilabi kün-lərində V. I. Lenin yazırdı: «Üs y a n müvəffəqiyyətli olmaq üçün, sui-qəsdə deyil, partiyaya deyil, q a b a q - c ı l s i n f ə arxalanmalıdır. Bu birincisi. Üsyan, xalqın i n q i l a b i y ü k s ə l i ş i n ə arxalanmalıdır. Bu ikincisi. Üsyan, böyümәkdə olan inqilabın tarixin-də elə bir d ö n ü ş n ö q t ə s i n ə arxalanmalıdır ki, bu zaman xalqın ön sıralarında ən böyük fəallıq ol-sun, düşmən sıralarında və inqilabın zəif, yarımçıq, qətiyyətsiz dostlarının sıralarında tərəddüd ən küc-lü olsun. Bu üçüncüsü (93, *274—275).* Azzrbaycanda in-qilabi hərəkat milli azadlıq və demokratik xarakter daşıdığından ADF silahlı üsyanı hazırlayanda qa-baqcıl sinif əvəzinə xalqa arxalandı. Partiya ümum-xalqı, onun iradə və qüvvəsini azadlıq yolunda qəti vuruş üçün təşkil etdi. Azərbaycanda silahlı üsyan günləri partiyanın orqanı yazırdı: «Bizim təkyəmiz firqə təşkilatına deyildir, (Biz) xalqa və ümummil-lətə dayanırıq» [46, 18.X1.1945]. Xalqın içərisində isə çox böyük əksəriyyəti təşkil edən kəndlilər və fəhlə-lər milli azadlıq və demokratik hərəkatın başlıca qüvvələri idilər. ADF silahlı mübarizəni təşkil et-diyi ilk kündən «bir dəstə vasitəsi ilə dövlət idarə-lərini tutmaq...» [91, *2—3]* kimi sui-qəsdçilik təkli-fini rədd etdi. Partiya özlərini Tehranda azadxah köstərənlərin «Üsyan əvvəlcə mərkəzdən (yə'ni Tehran-dan—*M. Ç.)* başlanmadı...[20, *12]* kimi yersiz «kileyi-ni» də qəbul etmədi.

Azərbaycanda silahlı mübarizə ərəfəsində ADF-nin hər bir çağırışına on minlərlə nəfər hazır olurdu. hər kün kəndlilərlə jandarmların vuruşma-sı közlənilirdi. 1945-ci il oktyabrın son künlərində xalq İran hökuməti tərəfindən Azərbaycandan azuqənin daşınıb aparılmasına yol vermədi. Noyabrın 6-dz «Azərbaycan» qəzeti bu hadisəni «xalq öz başına çarə edir» adlı baş məqaləsi ilə hamıya xəbər verdi.

O günlər demokratik hərəkatın qətiyyətsiz^ dostları sırasında küçlü tərəddüd var idi. İran burjua-ziyasının azadxah qrupunu təmsil edən İran Partiya-sının orqanı «Cəbhə» qəzeti Azərbaycanda silahlı mü-barizənin ikinci künü—1945-ci il noyabrın 19-da ya-zırdı: «Demokrat Firqəsi indiyə qədər böyük mü-vəffəqiyyət əldə etməmişdir. Məsələ çox mühüm de-yil». İran hökuməti noyabrın 17-də Tehrandan Azərbay-can üzərinə qoşun köndərdikdən sonra, qəzet 21 noyabr nömrəsində yazırdı: «Mühüm hadisə baş vermişdir (Azərbaycanda—*M. Ç.).* Daha mühüm hadisə baş verə bilər. Bu məmləkətdə hökumət və qayda-qanun sünkü kü-cünə saxlana bilər». Beləliklə, hökuməti təhrik edir və əslində hərəkatın düşmənləri sırasına yuvarlanırdı. Şah qoşunları Azərbaycana gedə bilmədikdə və Azərbaycanda silahlı üsyanın ilk qələbələrini kör-dükdə bu hərəkatın qarşısını almaq üçün İran höku-mətini yuxarıdan bə'zi islahatlar keçirməyə çağıraraq noyabrın 23-də həmin «Cəbhə» qəzeti yazırdı: «Azərbay-can hərəkatını bu nahiyyənin şəhər əhalisini və kənd-lilərini öldürməklə aradan kötürmək olmaz. Işi kö-kündən islah etmək kərəkdir. Ictimai ədalət yaratma-lı, fəhlə-kəndlilərin

hüququnu artırmaq üçün işə başlanmalıdır» Azərbaycanda silahlı mübarizə ərə-fəsində münasib beynəlxalq şərait inqilabi qüvvələ-rin qətiyyətini artırdığı halda azadxah qəzetlərdən «Ərəs», «Azadoqan», «Dad», «Darya», «İran-e ma» və baş-qalarında tərəddüd və sağa meyletmə özünü göstərirdi. İranda demokratik hərəkatın düşmənləri sırasında isə böyük çaşqınlıq var idi. İranın XIV məclisi nü mayəndələrindən azərbaycanlı tacir Fətəli Ipəkçiyan öz xatirələrində deyir: «Mən, Miyanada fədailərin çı-xışını eşitdikdən sonra, qorxuya düşüb qaçmaq üçün hazırlaşan nümayəndələri (Tehranda, XIV məclis de-putatlarıı—*M. Ç.)* çox zəhmətlə sakitləşdirməyə ça-lışdığım bu künlərdə, nakahan olaraq Zəncan hadisə-si baş qaldırdı (Zəncan şəhəri xalqın silahlı dəs-təlәri tərəfindən azad edildi—*M. Ç.)* Kecə nümayən-dələrin əksəriyyəti qaçıb məclisə kəlib, hökumətdən düzkün xəbər istəyirdilər. hökumət isə başını itirib qəti cavab verə bilmirdi. Səlahiyyətdar məqamlar (hö-kumət başçısı, nazirlər və sairə—*M. Ç.)* çamadanla-rını yığışdırmaqda idilər. «Ettelaat» qəzeti Qəzvi-nin süqutunu e'lan etmişdi. Mən naçar telefon ilə xə-bər tutdum, şaiyəni təkzib etdilər. Bununla belə, məc-lis nümayəndələrini sakit etmək mümkün olmadı. On-lardan bə'zisi Isfahana və sair şəhərlərə qaçmaqdan özlərini saxlaya bilmədilər» [94, *80].* Azərbaycanda da düşmən sıralarında şiddətli vahimə var idi. Silah-lı mübarizə ərəfəsində bir sıra qatı irticaçı iri mülkədar, bəy, xan, irticaçı hökumət qulluqçusu, qəzet müdiri, kizli polis və başqaları Azərbaycandan qaç-dılar. hökumətin mülki idarə rəisləri tərəddüddə idilər. İran dövlətinin tə'yin etdiyi yeni vali M. Fər-rux isə Azərbaycana kəlməyə cür'ət etmədi.

Azərbaycanda xalqın silahlı üsyanı inqnlabi təcrübəyə əsaslanmaqla bərabər ADF tərəfindən qabaqca-dan hərtərəfli düşünülmüş şəkildə hazırlanmışdı. Bu silahlı üsyan, kortəbiiliyin nəticəsi kimi, məcburiyyət üzündən və hazırlıqsız tədbir olaraq baş verməmişdir. ADF MK-nın sədri S. C. Pişəvəri bu barədə yazmışdır: «Biz, firqə təşkil olan kündən şüurlu və düşüncəli surətdə istədiklərimizi tə'min etmək üçün möhkəm bir hərbi təşkilat yaratmaq yo-lunda çalışırdıq. Lakin bu təşkilatın əməli surət-də başlanması aban ayının əvvəlindən (1945-ci il oktyabrın 23-dən—*M. Ç.)* hesab olunmalıdır» [94, *76].* ADF müəyyən etmişdi ki, silahlı mübarizədə xalq özü iştirak edəcəkdir. Xalq içərisində partiya başlıca olaraq fəhlələrə və kəndlilərə arxalanmışdır. S. C. Pişəvəri yazır ki, «Firqənin təşkili künundən silah tapmaq, fədai təşkilatı yaratmaq məsələsi bizim fəa-liyyətimizin ən əsas məsələlərindən olmuşdur» (94, *72).* ADF xalqın silahlandırılmasında ayrı-ayrı şəxslərin, xüsusən kəndlilərin kizli saxladıqları silahlardan(7), kiçik jandarm dəstələrini və irticaçı mülkədarları tərk-silah etməklə ələ keçən silahlar-dan istifadə etdi, nəticədə çoxlu adam silahlandırma-ğa və nisbətən böyük fədai(8) dəstələri təşkil etməyə müvəffəq oldu.

Azərbaycanda da xalqın silahlı mübarizəsində hər-bi stratekiya və taktikanın düzkünlüyünün həyati əhə-miyyəti olmuşdur. ADF MK-nın sənədlərindən mə'lum olur ki, silahlı mübarizə barədə iki başlıca tək-lif olmuşdur. Birincisi, silahı olan bir dəstəni kizlicə Təbriz şəhərinə toplayaraq dövlətin bu şə-hərdəki silahlı qüvvələrinə qəfildən hücum edərək onları tərk-silah etmək, hökumət idarəlrini tutmaq və eyni zamanda, bu əməliyyatı, bir-iki böyük şəhərdə də davam etdirərək hücumu kenişləndirmək [Bax: 91, *3;* 94, 55]. ADFYNIN hərbi rəhbərliyi bu təklifi rədd etmişdi. Çünki bu təklif xalqın özünün inqilabda iştirak etməsini nəzərdə tutmurdu və silahlı dəstə-ni xalqın köməyindən məhrum edirdi. Inqilabi mahiyyət kəsb etməyən bu plan mütləq

məğlubiyyətlə nəticə-lənməli idi. Silahlı mübarizə barədə ikinci təklif Azərbaycanın bir neçə mahalında, kənd yerlərində, ey-ni vaxtda partizan-fədai vuruşlarına başlamaqdan ibarət idi. Ümumi hərbi taktika olaraq qəbul edil-mişdi ki, İran hökumətinin böyük şəhərlərdəki si-lahlı qüvvələrinin bir-birilə əlaqəsini kəsmək. Si-lahlı xalq dəstələri olan fədailərin əvvəlcə kənd yerlərində silahlı irticaçıları və jandarm dəstə-lərini tərk-silah etməsi, qənimət alınan silahlarla əlavə silahlı qüvvə yaratmaq, qəsəbələri azad etmək və nəhayət böyük şəhərləri mühasirəyə almaq nəzərdə tu-tulmuşdu [Bax: 91, *3;* 94, *85].* Bu hərbi taktika düzkün idi və müvəffəqiyyətlə həyata keçirilməyə başlandı. Xalqın silahlı mübarizəsi ərəfəsində, 1945-çi ilin son aylarında, İran qoşunlarının Azərbaycan-da—Təbrizdə bir diviziyası, Urmu şəhərində bir bri-qadası, Ərdəbildə bir briqadası, Miyandabda bir ba-talyonu; Marağa, Əhər, Meşkin, Sarab, Astara, Xoy və sair şəhərlərdə müxtəlif qoşun hissələri və polis qüvvələri var idi. Azərbaycanın bütün böyük qəsəbələ-rində, eləcə də yollar boyu hər 25—30 kilometrdən bir jandarm dəstələri yerləşmişdi. həmin tarixə qədər İran hökumətinin silahlandırdığı irticaçı mülkə-darlar öz silahlı dəstələri ilə milli azadlıq və de-mokratik hərəkata düşmən olan qüvvələr sırasında durmuşdular.

İran hökumətinin jandarmları Azərbaycan kəndlə-rində cinayətlər törətdiyi ilk gündən ADF kəndlilə-rin vaxtından əvvəl, kortəbii və hazırlıqsız çıxı-şına yol vermədi. Partiya hər kün hadisələrə rəhbər-lik edirdi: Oktyabrın 12-də ADF göstərirdi: «Biz bu-nunla bütün xalqımızı təhəmmülə, səbrə və mətanətə də'vət edirik» [46, 12.X. 19451. Oktyabrın 23-də partiya deyirdi: «Ya tez, ya kec sütühə (tənkə kəlmiş—*M. Ç.)* kəlib canı boğazına yığılmış xalq özünə çarə ax-tarmağa məcbur olar» [46, 23.X. 19451. Bu sözlər ADF əməli surətdə xalqın silahlı mübarizəsini hazırla-dığı kün deyilmişdir. Oktyabrın 26-da «Azərbaycan» qəzeti «hara kedirsiz, durun!» adlı baş məqaləsində yazırdı: «Biz açıq deyirik: əgər jandarm rəisləri başladıqları cinayətlərdən əl kötürməzsə, əkər döv-lət mə'murları yerlərində oturmazsa x a l q ö z ü qa l x a r, onları yerinə oturdar. Partiya bundan son-ra məs'uliyyəti öz boynundan atır» [46, 26X19451. Azər-baycan xalqı İran hökumətinin qüvvələri ilə silahlı mübarizəyə hərtərəfli hazır olduğu kün—1945-ci il noyabrın 16-da Azərbaycan Demokrat Firqəsi kös-təriş verdi: «Xalq öz başına çarə etməlidir!» [46, 16. XI. 19451.

İranın hakim dairələri də Azərbaycanda xalq hə-rəkatını boğmaq üçün qəti tədbirlər körürdü. 1945-ci il noyabrın 16-da Tehrandan-İran qoşunlarının baş qərarkahı tərəfindən Təbrizə, Azərbaycandakı divi-ziya komandanına verilən əmrdə deyilirdi: «Saat 18. 25.UŞ. 1324-cü il (16.X1.1945-ci *ş—M. Ç.).* Bundan qabaqkı köstərişlərə uyğun olaraq Ərdəbil, Təbriz və Rzaiyyə (Urmu—*M. Ç.)* şəhərlərində və sair yerlərdə jandarmları və polisləri öz əmriniz altına almaqla dövlət idarələrini, xüsusən valiliyi, polis, jandarm və əskərlər yerləşən yerləri və teleqrafxananı zabit-lərin və əskərlərin son qətrə qanına qədər silahla mü-dafiə edin. Şəhərdə sakitlik yaradın və hər cür in-qilabın qabağını alın. Keneral leytenant Ərfə» [71, *29].* Belə bir əmr Urmu və Ərdəbil briqadalarına, Miyandab batalyonuna, jandarm və polis qüvvələrinə də verilmişdi.

Azərbaycan fədailəri İranın irticaçı hökuməti-nin silahlı qüvvələrinə ilk zərbəni 1945-ci il noyab-rın 16-dan 17-sinə keçən kecə Marağa, Mərənd, Miyanə, Sarab və Ərdəbil mahallarında eyni bir vaxtda vur-dular. Tədqiqat göstərir ki, bu yerlərdə xalqın inqila-bi coşğunluğu və mütəşəkkilliyi daha yüksək olduğu halda, düşmən qüvvələri və onların mövqeləri hər cə-hətdən zəif idi [95, Bax: 46, 7.XP—19551. Nəticədə 1945-ci il noyabrın 17-də Miyanə və Sarab şəhərləri, Marağanın Əcəbşir, Binab və Şişəvan qəsəbələri, Qulukənd və Xacəmir kəndləri, Mərəndin Yam kəndi və Ərdəbilin bir neçə böyük kəndi hökumət qüvvələrindən azad edildilər. Beləliklə də Təbriz,

Ərdəbil, Əhər, Astara, Marağa, Miyandab, Urmu, Xoy və Makı şəhər-lərindəki dövlət qüvvələri bir-birindən ayrı salına-raq təklənmiş oldular., Noyabrın 19-da «Azərbaycan» qəzeti yazırdı: «Nəhayət bıçaq sümüyə dayanıb kəndli-nin tab-təvanı kəsilib. Özünə çarə tapmaq fikrinə düşüb...Miyanədən, Sarabdan, Marağadan kələn xəbər-lərdən mə'lum olur ki, canından doyub vəhşətlərə tə-həmmül edə bilməyən kəndli intiqam silahı ilə qiyam etmişdir» [46, 19, X. 19451. Fədailərin çox böyük his-səsini yoxsul və ortabab kəndlilər təşkil edirdilər. Şəhər yerlərində isə əsas fədai qüvvəsi fəhlələrdən və sənətkarlardan ibarət idi. Təbriz şəhərinin fab-rik-zavod fəhlələri həm kəndlərin, həm də başqa şə-hərlərin azad olunması uğrunda vuruşlarda dəstə-dəstə iştirak etmişlər. «Azərbaycan» qəzeti «fədailər kim-lərdir?» sualına cavab olaraq yazırdı: «Fədailər xalqımızın ən qabaqcılları və qəhrəmanlarıdırlar. Dünən ölkəmizin həyati məsrəflərini yaradırdılar. Bu kün isə azadlığımızı hifz etmək üçün silah kötü-rüblər» [46, 27.X1.19451. Azərbaycan fədailəri sıra-sında Azərbaycan əhalisinin demək olar ki, bütün baş-lıça sinif və təbəqələrinin, millət və xalqlarının nümayəndələri iştirak etmişlər.

Azərbaycanda milli-azadlıq və demokratik üsul-idarə qurulmasına İran dövləti çox şiddətli silah-lı və siyasi müqavimət göstərirdi. Belə ki, noyabrın 17-də. Azərbaycana hücum etmək üçün İran qoşunun ilk böyük dəstəsi Tehrandan Qəzvinə hərəkət etdi. həmin kün Baş nazir Ibrahim həkimi (həkimülmülk) və XIV məclisin rəisi Sadiq Təbatəbai şahla körüşüb Azər-bayçanın vəziyyətini müzakirə etdilər. Daxili Işlər Nazirinin müavini, İran jandarm və polis idarələ-rinin rəisləri (keneral Xosrovpənah və keneral Zər-rabi) Tehran teleqrafxanasından birbaşa Azərbayca-na, vilayət və mahal hakimlərinə, jandarm və polis rəislərinə əmr verdilər ki, hər hansı bir hadisə baş verərsə təÇili qarşısını alsınlar və müqavimət kös-tərsinlər. həmin kün XIV məclisin irtiçaçı nümayən-dələrinin qəra^ı üzrə Tehrandakı Xaqani xiyabanın-dan Xaqani adı pozuldu və o xiyabana ayrı bir ad qo-yuldu [35, 19.X1. 19451.

Noyabrın 18-də Azərbaycan üzərinə köndərilən İran qoşununun ikinci bir dəstəsi Tehrandan Qəzvinə tərəf hərəkət etdi. XVI məclis İran qoşununu iki diviziya artırmaq və zabitlərin maaşlarını çoxaltmaq haqqında qanun verdi. Məclisdə baş nazirin müa-vini Kamal hidayət və hərbi nazir keneral-leytenant Riyazi Azərbaycan demokratları əleyhinə çıxış et-dilər. Yenə həmin kün hökumətin iclasında Azərbayçan məsələsi müzakirə olundu.

Noyabrın 19-da XIV məclisin qapalı və açıq ic-laslarında Azərbaycının vəziyyəti müzakirə edildi. Məclisin xarici işlər komissiyasının tə'cili iclası çağrıldı. Bu iclasda baş nazir və bə'zi nümayəndələr də iştirak etdilər. Lakin Azərbaycandan olan hətta qatı irticaçı nümayəndələrə belə o iclasda iştirak etməyə icazə verilmədi [89, 21.XI. 1945]. İran qoşunu baş qərarkahında da Azərbaycan hadisələri müzakirə edildi. Azərbaycanla əlaqədar olaraq hökumətin föv-qəl'adə iclası oldu.

Noyabrın 20-də XIV məclisdə Baş nazir I. həkimi Azərbaycanın vəziyyəti haqqında çıxış etdi. O, Azər-baycan demokratlarına işarə edərək dedi: «...pozuçu ünsürlər və pozuculuq salmaq istəyənlər şiddətli su-rətdə tə'qib olunacaqlar. Dövlət qəti iqdam edəcəkdir» [35, 21. XI. 1945]. Baş nazir İran qoşununa və hökumət orqanlarına azadlıq hərəkatı əleyhinə əməl azadlığı tələb etdi.

Noyabrın 21-də XIV məclisdə bə'zi nümayəndələr. məclisin kecə-kündüz iclas etməsini və Azərbaycan ba-rəsində çıxışlar olmasını tələb edirdilər. həmin kün Tehran qəzetləri xəbər verirdilər ki, neçə kün qa-baq Tehrandan yola salınan qoşunlar Azərbayçana ke-dəsi olmadılar. Çünki Azərbayçanda asayişi közləmək üçün hökumətin kifayət qədər qüvvəsi var və yeni si-lahlı

qüvvə köndərilməsi orada qırğına səbəb ola bilər.

Sonrakı künlərdə də XIV məclis, hökumət və Baş qərarkah Azərbaycan məsələsini tez-tez müzakirə edir-di. Nəhayət XIV məclis Azərbaycanda xalqın inqilabi hərəkatını yatırmaq və İranda İran Xalq Firqəsi-nın inqilabi fəaliyyətinin qarşısını almaq üçün təd-birlər körməkdən ötrü «Məmləkətin Ali Şurası(9) adı ilə İran irticasının ali şurasını yaratdı.
Azərbaycanda isə hərəkat yüksəlişə doğru kedirdi. 1945-ci il noyabrın 17-dən (1324-çü il abanın 26-dan) Azərbaycan fədailəri, kəndləri, qəsəbələri və şəhər-ləri bir-birinin ardınca İran hökumətinin qoşun, jandarm və polis qüvvələrindən azad etdilər. ADF-nin düzkün tədbirləri nəticəsində bir-iki yerdən başqa bütün qəsəbə və şəhərlərdə «hökumət qan tökülmədən irtica qüvvələrinin əlindən çıxıb xalqın əlinə keç-di» [76, *76]*. Azərbaycanın böyük qəsəbə və şəhərlərin-dən noyabrın 18-də Nəmin, 25-də Zənçan şəhəri, 26-da Kermi, 27-də Astara şəhəri və Biləsuvər, dekabrın 1-də Xoy və Makı şəhərləri, 3-də Səlmas, 5-də Marağa şəhəri, 9-da Meşkinşəhr, dekabrın 12-də Təbriz şə-həri (İran qoşunu və qoşun komendaturası qaldığı halda), 13-də Əhər və Xalxal şəhərləri, 15-də Ərdəbil şəhəri, 16-da Kələybər və Miyandab və dekabrın 19-da (28 azər 1324) Urmu şəhəri fədailər tərəfindən azad olundu(10).

Azərbaycan fədailərinin bütün əməliyyatına ADF-nin Mərkəzi Komitəsi rəhbərlik edirdi. «Mərkəzi Ko-mitəmiz fədai nehzətinin (hərəkatının—*M. Ç.)* Ərka-ne hərbi (Baş ştabı—*M. Ç.)* vəzifəsini ənçam ver-mişdir» [76, *50]*. ADF-nin MK-sı özünün və ümumiy-yətlə partiyanın körkəmli üzvləri vasitəsilə ilə fədai dəstələri təşkil etmiş və onların azadlıq uğrunda' vuruşlarına bacarıqla rəhbərlik etmişdir. ADF MK-nın sədri S. Ç. Pişəvərinin əsərlərində, partiyanın orqanında çıxmış məqalələrində və nəşr etdşi ki-tabda fədai başçılarından Təbrizdən Çəfər Kavya-nın, Marağadan Mirzə Rəbi Kəbirinin, Sarabdan QU-lamrza Çavidanın, Miyanədən Qulam Daneşyanın, Ər-dəbildən Əbdülməcid Məhəmmədvəndin, Mərənddən Se-yid Kazım Ələmin, Xoydan Nurullaxan Yekaninin, Ur-mudan Məhəmməd Əmin Azadvətənin, Zəncandan Qulam hüseynxan Osanlının, Miyandabdan Qulu Subhi və Aram Zadikyanın, Üskündən Yədulla Kələntərinin, eləcə də Fərzi Dehqan, Mirxəlil Əndəbili, hüseyn Tizfəhm, Xəlil Azər və başqalarının xalq hakimiyyəti uğrunda mübarizədə və fədailərə rəhbərlikdə köstərdikləri şücaət və fədakarlıqları qədrbilənliklə qeyd olun-muşdur [46, 4. IX. 1946; 76, 50; 94, 8, 9, 74, 76). İran qo-şununda olmuş və İran Xalq Firqəsi tərəfindən Azərbaycana köndərilmiş inqilabçı zabitlərdən on-larla nəfəri Azərbaycan fədailəri ilə bir sırada Azərbaycanda xalq hakimiyyəti qurmaq uğrunda qəhrə-manlıqla vuruşdu. Onlar fədai dəstələrinə hərbi bi-lik və təcrübələri ilə hərtərəfli kömək etdilər. Bu zabitlər sırasında Əbülqasım Əzimi, Mahmud Qazi Əsədullahi, Məhəmməd Akahi, Yusif Murtuzəvi, Yəhya Şeyxi, hüseyn Qaffari, M. Milanyan, M. Pirzadə, h. hatəmi, həsən Qasimi, Ə. Akəhi, Ə. Rəsədi, Tağı Musəvi və başqalarının hərbi-inqilabi xidmətlərini qeyd etmək olar. Kürd xalqı da Azərbaycanda xalqın silahlı üsyanına yaxından kömək etmişdir. Azərbay-can fədailəri Xoy, Salmas, Urmu, Nəqədey və Miyandab şəhərləri ətrafındakı kürd kəndləri tərəfdən ar-xayın idilər. Dost xalqın yaşadığı bu yerlərdə, xüsu-silə Miyandab nahiyyəsində İran hökumətinin jandarm qüvvələrinin böyük hissəsi inqilab künləri kürd fədai-ləri tərəfindən tərk-silah olundu.

Azərbaycanda xalq hakimiyyəti yarandıqdan sonra Azərbaycan Milli hökuməti milli-azadlığı ələ al-maqda və xalq hakimiyyəti qurmaqda iştirak edən fə-dailərə «21 Azər» medalı verilməsini qərara aldı [43, iş 32, 61. həmin qərara əsasən birinci növbədə 20 min nəfərdən çox fədaiyə «21 Azər» inqilab medalı verildi [46, 6. IX. 19461. Bu özü bir daha göstərir ki, Azərbayçanda 1945-ci ilin noyabr-dekabr aylarında İranın irticaçı hökumətinin qüvvələri əleyhinə si-lahlı mübarizədə on minlərlə xalq kütləsi iştirak etmişdir.

***

Azərbaycan Demokrat Firqəsi xalqın silahlı mü-barizəsi ilə yanaşı xalq hakimiyyəti

yaratmaq uğrunda bir sıra siyasi-təşkilati hazırlıq işləri də apar-dı. ADF-nin Mərkəzi Komitəsinin 1945-ci il 8—9 noyabr tarixli ikinci keniş plenumu Azərbaycan xal-qının milli muxtariyyətini tə?min etmək üçün təxirə salmadan əyalət və vilayət əncümənlərinin təşkilinə və İran məclisinə seçkilərə başlamağı qərara almış-dı [Bax: 75, *291}.* Bu qərarı həyata keçirmək üçün 1945-ci il noyabrın 10-dan 20-dək Azərbaycanın bütün qəsəbə və şəhərlərində 180-dən çox izdihamlı yığın-caqlar keçirildi. Bu yığınçaqlarda xalq kütlələri əncümənlərin təşkil olunmasını və Azərbaycana İran daxilində keniş muxtariyyət verilməsini tələb edən qərarlar qəbul edir, bu qərarların yerinə yetirilmə-sini sür'ətləndirmək üçün öz aralarından nümayəndə-lər seçirdilər. Bu qərarlar və xalq nümayəndələrinin adları böyük ağ parçalara yazılaraq camaat tərəfin-dən imzalanırdı. Bu tarixi sənədlər xalq nümayən-dələri vasitəsilə Təbrizə köndərilirdi.

Beləliklə, 1945-ci il noyabrın 20-də (1324-cü il aban ayının 29-da) Təbriz şəhərində Azərbaycan Xalq Konqresi (AXK) təşkil olundu. Konqresə xalq yığın-caqlarında 150 min nəfərin imzası ilə 724 nəfər nü-mayəndə seçilmişdi(11). Xalq yığıncaqlarında Azərbay-can əhalisinin təqribən milyon yarımı iştirak et-mişdi. «Nümayəndələr içərisində Azərbaycan xalqının bütün təbəqələri közə çarpırdı. Lakin əksəriyyət kənd-lilərdən və şəhər zəhmətkeşlərindən ibarət idi» [94, *27].* AXK-nin müzakirələrində əhalinin bütün sinif və təbəqələrinin, eləcə də Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri iştirak etmişdi.

Azərbaycan Xalq Konqresi müzakirələrdən sonra aşağıdakı tarixi sənədləri qəbul etdi.

Birinci sənəd—«Azərbaycan Məclise Müəssisane Millisinin qərarları» [Bax: 76, *33—36].* Bu qərarda köstərilirdi ki, Azərbaycan xalqı öz təbii və qanuni haqqına öz kücü ilə nail olmaq istəyir, Azərbaycanın İrandan ayrılmamasını e'lan edir. Qərarda daha son-ra deyilirdi: «Azərbayçan xalqı özünün daxili işlə-rini idarə etmək və milli muxtariyyətini tə'min et-mək üçün əyalət əncüməni təşkilatını bir qədər ke-nişləndirib ona Milli Məclis şəkli verir. İranın daxilində İranın ərazi bütövlüyünü və istiqlaliyyə-tini heç yolla xəlaldar etmədən özünün Milli höku-mətini vücuda kətirir. Xalq konqresi özünü müəssislər məclisi e'lan edir». AXK tezliklə Azərbaycan Millh Məclisi seçkilərinə başlanmasına tapşırıq verərək həmin qərarında göstərirdi: «Milli Məclis seçkiləri qurtarıb Milli hökumət (xalq hökuməti—*M. Ç.)* yara-nan künə qədər konqres öz nümayəndələrindən 39 nə-fərlik hey'ətə milli adlı bir hey'ət seçir, qəbul et-diyi qərarların icrasını həmin müvəqqəti hey'ətə tap-şırır».

İkinci sənəd—«Azərbaycan Məclise Müəəsisane Millisinin e'lamiyyəsi» [Bax: 46, 23. XI. 1945]. AXK bu bəyannamə vasitəsi ilə öz qərarlarını, Azərbaycan xalqının əsas tələblərini İran şahına, İran məc-lisinə və İran hökumətinə, eyni zamanda ABŞ, Inkil-tərə, SSRI və Fransa dövlətlərinə çatdırdı.

Üçünçü sənəd—«Azərbaycan Məclise Müəssisane Millisinin bəyaniyyəsi. Azərbaycan millətinə və Ümum-İran xalqına!» [Bax: 75, *421—427].* Bu bəyənnamədə de-yilirdi: «Azərbaycan muxtar və azad yaşamağa haqlı-dır. Azərbaycan milləti öz milli muxtariyyətinin qo-runması üçün özünəməxsus bir xalq məclisi olması lü-zumunu körür. Seçki fərmanını xalq özü verəcəkdir. Azərbaycan milləti özünün xalq məclisinə seçkilər ke-çirəcəkdir. Biz inanırıq ki, sair əyalət və vilayət-lər də azadlıq bayrağını qaldırıb İran məclisinin seçkisinə başlayacaq, bununla da əyalət-vilayət əncü-mənlərinin qurulmasına iqdam edəcəklər».

Dördüncü sənəd—«Azərbaycan Milli Məclisinin intixabat (seçki—*M. Ç.)* qanunu» idi [Bax: 46, 2. XII. 19451. Yaxın və Orta Şərq tarixində birinçi dəfə bu qanun qadınlara kişilərlə bərabər

seçmək və seçil-mək hüququ verdi. Bu qanunda köstərilirdi ki, seçki-lər müstəqim, kizli və bərabərdir. Seçki qanunu 20 yaşına çatanlara seçmək və 27 yaşdan 80 yaşa qədər olanlara seçilmək hüququ vermişdi. Azərbaycan Məc-lisinin nümayəndələrinin sayı 100 nəfər müəyyən olun-muşdu. AXK-nın verdiyi bu qanun məmləkətin istiqla-liyyətinin, Azərbaycanın muxtariyyətinin və Xalq ha-kimiyyətinin əleyhinə fəaliyyət köstərənləri seçki hü-ququndan məhrum etmişdi.

Azərbaycan Xalq Konqresinin və onun qərarlarının milli azadlıq hərəkatında çox böyük əhəmiyyəti oldu. AXK özünü müəssislər məclisi e'lan etməklə Azərbay) (aan xalqının öz müqəddəratını tə'yin etməsinə qanuni əsas yaradan, səlahiyyətli və qanun verə bilən ali or-qan oldu. Bununla da Azərbaycanla İran arasındakı irticaçı mərkəziyyət zənciri qırıldı. Xalq konqresi Azərbaycanda Milli Məclis və Milli hökumət yara-dılmasını qərara almaqla Azərbaycan xalqına öz mü-qəddəratını tə'yin etmək yolunu köstərdi.

Xalq konqresinin yaratdığı Azərbaycan Milli hey'-əti milli-azadlıq hərəkatında mühüm inqilabi rol oy-nadı. Azərbaycanda xalqın ilk silahlı dəstələri ya-randığı kündən (1945-ci il oktyabrın 23-dən) Milli hey'ət seçildiyi künə (1945-ci il noyabrın 21-nə) qədər müəyyən mə'nada ikihakim&yyətlilik v»r idi. Azərbaycan qəzeti o künlər yazırdı: «Indi Azər-baycanda iki cərəyan əmələ kəlmişdir. Biri xalqı əzib, boğub mal və müknət (sərvət—*M. Ç.)* kəsb etmək istəyən dövlət mə'murları, dikəri isə azadlıq və de-mokratiya üsulunu əməli surətdə diriltməyə çalışan milli (xalq—*M. Ç.)* qüvvələr» (46, 14.X1.1945). Azər-baycan Milli hey'əti işə başladığı kündən (1945-ci il noyabrın 21-dən) isə Azərbaycanda ikihakimiyyətli-lik rəsmiləşdi. Xalq hakimiyyətinin mərkəzləşmiş orqanı yarandı. Azərbaycan Milli hey'ətinin 39 nəfər üzvü sırasında Azərbaycan əhalisinin bütün sinif, tə-bəqə və xalqlarının, əksər vilayətlərinin və ellərin nümayəndələri var idi(12). Azərbaycan Milli hey'əti xal-qın qüdrətinə arxalanaraq bir sıra mühüm inqilabi əhəmiyyətli işlər kördü. Milli hey'ət İran hökuməti tərəfindən Azərbaycandan taxılın daşınıb aparıl-masının qarşısını aldı, irticaçı mülkədarların əsassız şikayətləri üzrə həbs olunmuş yüzlərlə kənd-lini azad etdirdi, xalqın zəruri işlərinə baxmaq üçün hökumətin bir sıra idarələrinə köstərişlər verdi, xalqın asayişini pozanlarla inqilabi yolla mü-barizə apardı və sair tədbirlər kördü. Milli hey'ət Azərbaycan Milli Məclisi seçkilərinə başlamaq haq-qında 1945-ci il noyabrın 21-də fərman verdi. Bu iş öz-özlüyündə inqilabi əhəmiyyətə malik idi. Azərbaycan xalqı İran dövlətinin başçısı şahın fərmanını közləmədən özü Azərbaycan Milli Məclisi seçkisinə başlanmasına köstəriş verdi. Azərbaycan Milli hey'-əti 1945-ci il noyabrın 25-də Təbrizin bir sıra kör-kəmli xadimləri ilə, dekabrın 8—11-də isə Şahın və İran hökumətinin nümayəndəsi və Azərbaycan valisi Səhamülsultan Murtuza Bəyatla danışıqlar apardı. hər iki danışıq İran hökumətinin təşəbbüsü ilə təşkil olunmuşdu. İran hökuməti bu yolla Azərbay-canda Demokratların müqabilində bir siyasi qüvvə yaratmaq, vaxt qazanmaq və əfkari-ümumini aldatmaq fikrində idi. Lakin xalqa bir daha mə'lum oldu ki, İran dövləti Azərbaycana muxtariyyət vermək istəmir, əyalət—vilayət əncümənlərinin təşkilinin əleyhinə-dir və danışıq üçün köndərdiyi nümayəndənin heç bir qərar qəbul etmək səlahiyyəti yoxdur.

Azərbaycan Milli hey'ətinin verdiyi fərman üzrə və Azərbaycan Milli Məclisinin seçki qanunu əsasın-da 1945-ci il noyabrın 27-də Azərbaycanın vilayət və mahallarında Azərbaycan Milli Məclisinə seçkilər başlandı. Bu zaman Təbriz, Ərdəbil, Urmu, Marağa, Mi-yandab, Əhər, Meşkin, Xalxal, Xoy, Makı, Mərənd, Salmas kimi şəhərlər və bir sıra qəsəbələr yuxarıda qeyd olunduğu kimi hələ də İran hökuməti idarələri-nin və silahlı qüvvələrinin hökmranlığı altında idi. Onlar Azərbaycan Milli Məclisinə seçkiləri pozmağa çalışırdılar. Buna baxmayaraq, seçkilər beş kün davam edərək 1945-ci il dekabrın 1-də (1324-cü il azər ayının 10-da) hər yerdə böyük

müvəffəqiyyətlə qurtardı. Azərbaycan Milli Məclisinə 32 seçki dai-rəsindən 100 nəfər nümayəndə seçildi. Bunların bö-yük əksəriyyətini ən körkəmli inqilabçılar, mübariz, vətənpərəst, maarifpərvər şəxslər; kəndlilər, fəhlə-lər, ziyalılar, sənətkarlar, azad peşə sahibləri və milli burjuaziyanın nümayəndələri təşkil edirdilər. Xalq Azərbaycan Demokrat Firqəsiın köstərdiyi namizədlərə səs verdi. O çümlədən bu namizədlərə Təbriz şəhərində 23.500 nəfər, Sarab mahalında 19.956 nəfər, Marağada 16.271 nəfər, Ərdəbildə 15.826 nəfər, Xoy mahalında 14.828 nəfər, Urmu mahalında 12.594 nəfər, Makıda 11.955 ^əfər səs vermişdi. Əldə olan mə'lumata körə təkcə 21 seçki dairəsində 84 namizədə 201 min 639 nəfər səs vermişdi.

ADF-nin Mərkəzi Komitəsi özünün, vilayət komitə-lərinin və ümumiyyətlə partiyanın siyasi və təşkilat-çılıq cəhətdən ən bacarıqlı üzvləri vasitəsi ilə xalq hakimiyyəti yaranması uğrunda siyasi mübarizəyə müvəffəqiyyətlə rəhbərlik etmişdir. Bu barədə ADF MK-nın sədri S. C. Pişəvəri partiyanın rəsmi orqa-nında və mətbuatında belə yazmışdır: «Firqənin səd-ri və onun müavinləri: ağayi Mirzəli Şəbüstəri və ağayi Sadıq Badəqan başda olmaq üzrə yenə Mərkəzi Komitə üzvləri birinci səfdə mübarizə edib böyük və heyrətavar işlər körməkdə idilər. Bu siyasi-ictimai mübarizə səfində daha artıq fəaliyyət kstərən Mər-kəzi Komitə üzvlərindən: ağayi Birya Məhəmmədi, ağa-yi Qiyami Zeynalabdini, ağayi Vilayi Mirrəhimi, ağa-yi Xəlil Azərbadəqanı, ağayi Çövdət həsəni, ağayi Şa-hin Tağını, ağayi Çeşmazər Mirqasımı, ağayi Məhəm-məd Tağı Rəfii Nizaməddövləni, ağayi Zəfiri həsə-ni, ağayi haşımniya Kazımı(13) və sairələrini köstər-mək olar» [Bax: 76, *51;* 4.IX. 1946].

Azərbaycan fədailərinin bir çox şəhər və qəsəbə-ni irticaçı hökumət qüvvələrindən azad etməsi Azər-baycan Milli Məclisi seçkiləri müvəffəqiyyətlə qur-tardığı dövrə təsadüf edir. 1945-ci il dekabrın 11-də Marağa, Sərdəri, Sarab, Bastanabad, Mərənd və Sofi-yanın, eləcə də Təbrizin yaxın mahallarının fədai dəstələri Təbriz şəhərini tamamilə mühasirə edərək İran şah hökumətinin silahlı qüvvələrinin şəhərdən kənar ilə bütün canlı əlaqələrini kəsdilər. Təbriz şəhərinin fədailəri isə öz vəzifələrini icra etdilər. [Bax: 76, *51].*

Şahın və İran hökumətinin nümayəndəsi olaraq Azərbaycan demokratları ilə danışıqlar aparmaq üçün Təbrizə kəlmiş Azərbaycan valisi Murtuza Bəyat (Səhamülsultan) Azərbaycan Milli hey'ətinin tələbi üzrə dekabrın 11 -də Təbrizi tərk edərək Tehrana getdi.

1945-ci il dekabr ayının 12-də (1324-cü il azər ayı-nın 21-də) Təbriz şəhərində Azərbaycan Milli Məcli-si açıldı.(14) Bu məclisin birinci iclasında 100 nə-fər nümayəndədən 75 nəfəri iştirak etmişdir. Məclis birinci iclasında özünün daxili nizamnaməsini qəbul etdi 1Bax: 75, *444—447].* Azərbaycan Milli Məclisinin daxili nizamnaməsində milli azadlıq və İran daxi-lində muxtariyyət prinsipi tamamilə közlənilmişdi. Nizamnamədə qeyd olunmuşdu ki, Azərbaycan Milli Məclisi qanunverici orqandır. Nizamnamədə Azərbay-can Milli Məclisi Azərbaycan Milli dövlətinin(15) tər-kibində xarici işlər və hərbi nazirliklərin yara-dılmasını nəzərdə tutmamışdı. Nizamnaməyə körə Nazirlər Şurası kimi, tək-tək nazirlər də Milli Məclis qarşısında məs'uliyyət daşıyırdılar. Azər-baycan Milli Məçlisi birinci iclasında özünün 9 nə-fərdən ibarət daimi Rəyasət hey'ətini aşağıdakı tər-kibdə seçdi: Mirzə Əli Şəbüstəri—Azərbayçan Milli Məclisinin rəisi, Sadıq Badəqan, Məhəmməd Tağı Rə-fii Nizaməddövlə və həsən Cövdət—məclis rəisinin müavinləri, Mirrəhim Vilayi və Məhəmməd Əzima— məclisin katibləri, Əliəskər Dibaiyan, Sadıq Dil-məqani və Muradəli xan Teymuri Rəyasət hey'ətinin

üzvləri. Azərbaycan Xalq konqresinin (1945-ci il no yabrın 21-də) seçdiyi Azərbaycan Milli hey'əti

21 kün fəaliyyət köstərdikdən sonra Məclisin birinci icla-sında vəzifəsi axıra çatdığını e'lan etdi və səla-hiyyətini yerə qoydu.

Azərbaycan Milli Məclisinin 1945-ci il dekabrın 12-də (1324-cü il azər ayının 21-də) ikinci (künorta-dan sonrakı) iclasında Azərbaycan Milli hökuməti təşkil edildi. Milli Məclis özünün daxili nizamna-məsinə uyğun olaraq Hökuməti-Nazirlər Şurasını təş-kil etməyi deputatların əksəriyyətinin mənsub olduğu partiyanın rəhbərinə tapşırmışdı. Ona körə də Azər-baycan Demokrat Firqəsinin sədri S. C. Pişəvəri Azərbaycan Milli hökumətinin tərkibini (nazirlər Şurasını) Milli Məclisə təqdim etdi. Milli Məclis Milli hökuməti aşağıdakı tərkibdə təsdiq etdi:

Azərbaycan Milli hökumətinin Baş Vəziri (Na-zirlər Şurasının sədri) Seyid Cəfər Pişəvəri, da-xili işlər vəziri Salamulla Cavid, Xalq Qoşunları vəziri Cəfər Kavyan, kənd təsərrüfat vəziri Cavid Məhtaş, maarif vəziri Məhəmməd Birya, səhiyyə vəzi-ri Orənki, maliyyə vəziri Qulamrza Ilhami, ədliyyə vəziri Yusif Əzima, yol, poçt, teleqraf və telefon və-ziri Mirzərəbi Kəbiri, ticarət və iqtisad vəziri Rza Rəsuli, iş və zəhmət vəziri(16). (Sonra həsən Cöv-dət tə'yin edildi).

Milli Məclis Zeynalabdin Qiyamini Azərbaycai Ali Məhkəməsinin rəisi və Firidun Ibrahimini Azər-baycan prokuroru seçdi.

Azərbaycan Milli Məclisi Baş Vəzir S. C. Pişə-vərinin məclisə ^təqdim etdiyi Azərbaycan Milli hö-kumətinin iş proqramını keniş müzakirədən sonra yekdilliklə qəbul etdi(17). Məclis xalqın azadlığını qorumaq üçün Azərbaycan Milli hökumətinə keniş sə-lahiyyət verdi.

İran şah hökumətinin Təbrizdəki qoşun hissələri də dekabrın 12-də fədailərə təslim oldular.

1945-ci il dekabr ayının 20-dən (1324-cü il azər ayının 29-dan) Azərbayçan İranın irticaçı və şah-lıq hökumətinin zulmündən xilas edildi və Azərbay-canda Xalq hakimiyyəti bərqərar oldu.

Azərbaycan Milli hökumətinin proqramında İran daxilində Azərbaycanın muxtariyyəti prinsipinə ta-mamilə riayət olunmuşdur. Bu proqramda Azərbaycanın siyasi, iqtisadi, ictimai və mədəni həyatının bütün sahələrinin milli azadlıq və demokratiya əsasları üz-rə yenidən qurulması, inkişaf etdirilməsi və Azərbay-canın muxtariyyətinin qorunması və möhkəmləndiril-məsi üçün yaxın müddətdə körüləcək əməli vəzifələr müəyyən edilmişdi. Milli hökumətin proqramında qeyd olunmuşdu ki, İranın istiqlaliyyətini və ərazi bü-tövlüyünü xələldar etmədən milli dövlətimizi demok-ratik əsaslarla quracayıq. Azərbaycan Milli höku-adəti İranın mərkəzi hökumətini tanıyır [Bax: 46, 13. XII. 1945].

Milli hökumətin iş proqramında xüsusi mülkiy-yət haqqında ayrıca olaraq köstərilirdi ki, «Azər-baycan Milli hökuməti məmləkətin bütün sahələri üçün xüsusi mülkiyyəti qəbul edib məmləkətin və xalq iqtisadiyyatının tərəqqisinə və xalqın rifah-halına səbəb ola bilən hər cür xüsusi iqdamata (burada xüsu-si sahibkarlıq mə'nasında—*M. Ç.)* kömək edəcəkdir» [46, 13. XII. 1945].

Xalq hakimiyəti yaranana qədər olan vəziyyətin tam əksinə olaraq Azərbaycan Milli Məclisi və Azərbaycan Milli hökuməti simasında Azərbaycan öz müqəddəra-tının əsil sahibi oldu. Təbriz Xalq hakimiyyətinin mərkəzi olmaqla İran daxilində Azərbayçanın inzi-bati-ərazi birliyi əhəmiyyətli dərəcədə tə'min edil-di. Azərbaycan xalqı siyasi hakimiyyət və milli hüquq əldə etdi. İranda

istismarçı siniflərin irticaya, imperializmə arxalanan hakimiyyəti—şahlıq üsul-idarəsi hökmran olduğu halda Azərbaycanda milli-azadlığa və demokratiyaya əsaslanan xalq hakimiyyəti yarandı, şahlıq rejimi ləğv edildi.

Azərbaycan Milli hökuməti ikinci dünya mühari-bəsindən sonra Yaxın və Orta Şərqdə yaranan birinci xalq demokratik hakimiyyəti idi.

Azərbaycanda Xalq hakimiyyəti yaranmasını xalq çox böyük şadlıqla bayram etdi. Azərbaycan Milli Məclisinə və Azərbaycan Milli hökumətinə—Təbrizə yüzlərlə təbrik kəlirdi. Ərdəbil şəhərindən yazırdı-lar: «Azər ayının 21-ci künü Azərbaycan millətinin tarixində böyük bir bayram olmalıdır. Bu kün Azər-baycan öz arzu və istəklərinin həyata keçirilməsinə qədəm qoyduğu böyük tarixi bir kündür» [46, 19.XP. 19451. Xalq hakimiyyətinin təşkilini kürdlər və İran-da yaşayan başqa xalqlar da çox şadlıqla qarşıla-dılar. Kürdüstanın Mahabad şəhərindən köndərilmiş təbrik məktubunda deyilirdi: «Kürdüstanın ümumi əhalisi tərəfindən Azərbaycan Milli Məclisinə bil-diririk ki, hər cür köməyə və əməkdaşlığa canla-baş-la hazırıq» [46, 25.XP.1945]. İranın cənubundan kön-dərilmiş teleqramda Azərbaycanda Xalq hakimiyyəti yaranmasına böyük qiymət verilirdi. Fars əyalətinin mərkəzi Şiraz şəhərindən yazırdılar: «Azərbaycan hərəkatı dövrümüzün böyük milli hərəkatlarından bi-ridir. İran millətinin nəcatı üçün mərdliklə üsyan edərək hakim təbəqənin əsarət zənçirlərini qıran Azərbaycanın azad oğullarına salam!» [46, 3. I. 1946].

İranın demokratik qüvvələri Azərbaycanda Xalq ha-kimiyyəti yarandığı kündən onu müdafiə etdilər. İran Xalq Firqəsi Mərkəzi Komitəsinin qərarı üzrə 1945-ci il dekabrın 24-də IXP nümayəndəsi XIV məçlis tribunasından deyirdi: «Azərbaycan məsələsi İranın daxili işidir. Azərbaycanın tələbləri İranın bütun nöqtələrində həyata keçirilməlidir» [96, 25. XII. 19451. İranın irticaçı I. həkimi hökuməti Birləşmiş Millətlər Təşkilatında Azərbaycan azadlığı əleyhi-nə uydurma məsələ qaldırdığı vaxt, IXP Mərkəzi Ko-mitəsi və İran Azadlıq Çəbhəsinin Mərkəzi Şurası Londona, BMT sessiyasına teleqram köndərərək İran hökumətinin irticaçı, antidemokratik hökumət oldu-ğunu və İran xalqlarının nümayəndəsi olmadığını köstərməklə Azərbaycan Xalq hakimiyyətini müdafiə etdi [Bax: 84, 9.1.19461. İranın demokratik mətbuatı,

o çümlədən: «Novruze İran», «Nameye Rəhbər», «Nəca-te İran», «Cəbhə», «Azadəqan», «Bidari», «Darya», «Bəhram» və başqaları da Azərbaycan Milli hökumətini alqışlayaraq müdafiə edirdilər. «Foruğe İran» qəzeti yazırdı: «Şübhəsiz ki, 21 Azər künü İran azad-xahları üçün də tarixi və milli bayramdır». Sonra-lar IXP Mərkəzi Komitəsinin orqanı yazırdı: «Azər baycan və Kürdüstan üsyanlarının tə'siri nətiçəsində İranın başqa yerlərində milli azadıq hərəkatı mi-silsiz dərəcədə kenişləndi və imperializm əleyhinə olan qüvvələr arasında keniş əməkdaşlıq yarandı» [96, 7. 12. 19551.

İranın irtiçaçı hakim təbəqələri və Amerika-İngilis imperialist dairələri Azərbaycanda xalq haki-miyəti yaranmasını düşmənçiliklə qarşıladılar. ABŞ və Inkilis dövlətləri Azərbaycan xalq hakimiy-yəti məsələsini həmin künlər diplomatik maçəralara çəkmək və bu yolla da onu məhv etməyə çox böyük sə'y köstərdilər. Lakin SSRI hökuməti Azərbayçan milli-azadlıq və demokratik hərəkatını müdafiə etməklə imperialistlərin İranın daxili işlərinə qarışmaq planını pozdu.

İranın Baş naziri I. həkimi İranın XIV məcli-sində 1945-ci il dekabrın 12-də və 18-də

Azərbaycan haq-qında danışaraq bildirdi: «...Dövlət Əsas Qanunun xilafına olan bu silahlı üsyanı tanımır. Dövlət bu-nun müqabilində ciddi müqavimət köstərmək qərarına kəlmişdir. Azərbaycandan qalxan bu xoşakəlməz səs-lərin heç bir rəsmiyyəti yoxdur. Bu səslər kərək hök-mən boğulsun» Q90, 1967, № 727, *10].* İran dövləti Azər-bayçan Milli hökumətini aradan qaldırmaq üçün çox böyük hazırlıq görürdü.

***

Kürdüstan Demokrat Firqəsinin rəhbərliyi ilə (bu partiya İran Kürdüstanında 1945-çi il avqustun 16-da təşkil olunmuşdur) 1946-çı il yanvarın 22-də Mahabad şəhərində Kürdüstan Xalq Konqresi (müəs-sisan məçlisi) təşkil olundu. Bu konqresdə İran Kür-düstanının şimal-qərb rayonlarının 20 min nəfərdən çox nümayəndəsi iştirak edirdi. Kürdüstan Xalq Konqresi kürd xalqının milli azadlıq hərəkatının körkəmli başçılarından olan Kürdüstan Demokrat Par-tiyasının rəhbəri Qazi Məhəmmədin başçılığı ilə İran dövləti daxilində Kürdüstan Milli hökuməti yaratdı. Kürdüstan Milli hökumətinin yaranması kürd millətinin azadlıq hərəkatı tarixində böyük in-qilabi əhəmiyyətə malik hadisə oldu. Kürdüstan Milln hökuməti Kürdüstanın siyasi, ictimai və mədəni həya-tını demokratik əsaslar üzrə yenidən qurmağa başla-dı. ADF və Azərbaycan Milli hökuməti Kürdüstan De-mokrat Firqəsi və Kürdüstan Milli hökuməti ilə hərtərəfli inqilabi həmkarlıq edirdilər. 1946-cı il aprelin 23-də Təbriz şəhərində hər iki milli hökumət arasında siyasi, iqtisadi, mədəni və hərbi əməkdaş-lıq haqqında müqavilə bağlanması və həyata keçirilməsi İran dövləti çərçivəsində yaşayan milətlərlə inqilabi əməkdaşlıq nümunəsi olmuşdur.

## açıqlamar

1- Azərbaycan Demokrat Firqəsinin müraçiətnaməsi «12 şəh-rivər müraciətnaməsi» adı ilə də məşhurdur. Azərbayçan Demokrat Firqəsinin müraciətnaməsi S. Ç. Pişəvəri tərəfindən Azər-baycan və fars dillərində yazılmışdır [76, 2].

2- Seyid Cəfər Pişəvəri Seyid Cavad oğlu (1892—1947) Azər-baycanın Xalxal mahalının Zeyvə kəndiıdə kəndli ailəsində anadan olmuşdur. 19—20 yaşlarından siyasi və inqilabi fəaliyyətə başlayaraq 1917-ci ildə Qafqazda inqilabi hərəkatda yaxından iştirak etmişdir. 1918-ci ildən 1930-çü ilin sonuna qədər Pişəvəri İran Demokrat Firqəsi və İran Ədalət Firqəsi sıralarında, Gilan əyalətində inqilabi respublika hökumətində xarici işlər naziri və siyasi rəhbər vəzifəsində (1920-ci ilin iyununda), İran Kommunist Firqəsi sıralarında müxtəlif mühüm və məs'ul partiya vəzifələrində işləyərək İran xalqlarının ingilis imperializmindən və Riza şah diktaturasının əsarətindən qurtarması uğrunda mübarizədə fəal surətdə iştirak etmişdir. 1930-cu ilin sonundan 1941-ci il sentyabrın ortasına qədər Pişəvəri Riza şah diktaturası tərəfindən həbs (10 ildən çox) olunub, sürgündə saxlanmışdır. 1941-ci il avqustun 25-də SSRİ və İngiltərə orduları İrana daxil olduqdan sonra Pişəvəri də sürgündən azad edildi. S. C. Pişəvəri 1941-ci il sentyabrın sonunda İran Tudə Hizbinı və 1943-cü ildə İran Azadlıq cəbhəsini yaradanlardan biri olmuşdur. O, 1944-cü ilin əvvəllərində İranın 14-cü məclisinə Təbriz seçki dairəsindən ən çox 15786 səslə deputat seçilmişdir. S. C. Pişəvəri 1945-ci ilin sentyabr ayından Azərbayçan Demokrat Firqəsinin Sədri və 1945-ci il dekabr ayının 12-dən 1946-cı il iyunun 25-nə qədər Azərbaycan Milli hökumətinin Baş vəziri (Nazirlər Şurasının sədri) olmuşdür.

3- Söhbət bütün torpaqların bölünməsindən gedir—M. Ç.

4- Həmin maddədə deyilir: «Xalisələri (Dövlət torpaqlarını— M. Ç.) fövriyyətlə kəndlilərə pulsuz olmaq şərti ilə paylamaq lazımdır. Həmçinin istibdad dövrünün tərəfdarı olan və Azərbaycanı qoyub qaçmış mülkədarların da torpaqları müsadirə olunub kəndlilərin ixtiyarına verilməlidir». [87, 14—/5].

5- Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinin üzvləri: S. C. Piyşəvəri; M. Ə. Azadvətən: X. Azəpbadəqan; Atəşxan Bəyatmakı, S. Badəqan, Həsən Birənk. M. Q. Biriya, M. H. Burhani, Tağı Bopçalı: Ə. Vaqif: M. Vilayi; Z. Qiyami: Qulu Sübhi: Daniel Yuşiya: Bağır Diyanət; Ə. Əhmədi; Ədib Cəfər: Əmin Fərşçiyan; Həsən Zəfirii: Firydin İbrahimi: Rəbidövlə Kabiri: Çəfər Kaviyan; Y.

Kələntəri; Əli Maşınçı: Mükərrəm Turabi; Abbasəli Pənbeyi; M. Nunəkərani; M. T. Rəfii; H. Reyhani; S. Sərkisyan; A. Səbbaği; Q. H. Fərşi; M. R. Fişənkçi: H. Həmədani; A. Hidayət. S. Həbibi: M. Hilal Nasiri; Cavid Salamulla, Cövdət Həsən, Şahin Tağı: M. Ə. Şəbüstəri: M. Ə. Şəkiba.

6- Azərbayçan Demokrat Firqəsinin Mərkəzi Təftiş komissiyası üzvləri: Şahin Ağazadə; İbrahim Axundzadə; Q. Dapeşyan: H. Yəzdani; Nurullaxan Yekani; Muradxan Bəyatmakı; M. B. Rabit; Riza Rəsuli; Əhməd Səidi; M. Sələhşur; Mehdi Haşımi; Mehdi Çavuşi.

7- 1941-ci il avqustun son günlərində, xarici qüvvələr İrana daxil olan zaman, Azərbaycanda İran qoşunlarının 3, 4 və 15-ci diviziyalarının tökük qaçdıqları yüngül silahların çoxu xalqın əlinə keçmişdi.

8- 1945-ci ildə oktyabr ayının sonundan başlayaraq Azərbaycanda milli-azadlıq və xalq hakimiyyəti uğrunda əlinə silah alaraq vuruşan şəxslərə fədai deyilirdi

9- «Məmləkətin Ali Şurası»na (9.XII. 1945—26. 1, 1946) 6 nəfor: Qəvam-əs Səltənə (Əhməd Qəvam), Bəhaül-mülk (Qaragözlü), Mənsurül-mülk (Əli Mənsur), Müstəşar-əd dövlə (Sadiq Sadiq), Mö'təmənəl-mülk (Pirniya) və Həkimül-mülk (Həkimi) (Bax: 79, 11. X. 1945) və (Bax: 89, 10. XII. 1945). təyin olundular.

10- İran hökumətinin göstərişi və yerli irticaçıların təhrikl ilə İran hökumətinin silahlı qüvvələri Meşkinşəhr və Urmuda xalq qüvvələri ilə vuruşaraq böyük qırğın törətdikdən sonra məğlub və fədailərə təslim oldular,

11- AXK-də nümayəndələrdən 646 nəfəri iştirak edird. Konqres nümayəndələrinin 256 nəfəri Təbriz şəhərindən və onun yaxın mahallarından seçilmişdi.

12- AXK tərəfindən Azərbaycan Milli Hey'ətinə M. Ə. Şəbüstəri (rəis): Y. Babaxan, S. Badəqan, M. Birya, Q. Borçalı, M. Bürhani, H. Vahabzadə, Z. Qiyami, H. Davudi, Ə. Dilbaiyan, S. Dilməqani, M. Ziyayi, F. İbrahimi, Q. İlhami, N. Yekani, C. Kavyan, Ə. Maşınçı, C. Məhtaş, S. Mkrdıçyan, R. Müvəzzezadə, Müinzadə, Mirmusa, S. C. Pişəvəri, A. Pənbeyi, Pur Rəsul, M. Rəfii, Xoyi Rəhimzadə, Ə. Səidi, M. Teymuri, Mükərrəm Turabi, Xadime Millət, S. M. Haşimi, M. Hilal Nasiri, M. Çavuşi, S. Cavid, M. Cəlili, H. Cövdət, Şahin Nüsrət bəy, Şeyx Musa (Bax: 46, 27. XI. 1945) üzv seçilmişdilər.

13- Haşımniya Kazım və Çeşməzər Mirqasım o dövrdə ADF MK-nin üzvü olmamışlar.

14- Azərbaycan Milli Məclisinin açıldığı və Azərbaycan Milli Hökumətinin təşkil olunduğu tarix İran təqvimi üzrə azər ayının 21-nə (1324-cü ildə) mütabiq olmuşdur. Buna görə də bu tarixi gün «21 Azər> günü adı ilə və Azərbaycanda 1945—1946-cı illərdəki milli azadlıq və demokratik hərəkat «21 Azər hərəkatı» adı ilə məşhur olmuşdur.

15- Azərbaycan Milli Məçlisinin daxili nizamnaməsinin dövlət təşkili haqqında bölməsinin 3-cü maddəsində belə yazılmışdır: «Dövlət, yə'ni quvveyi mocriye (İcra edici qüvvə—M. Ç.), Deməli Azərbaycan Milli Məclisinin daxili nizamnaməsinin hər bir maddəsində dövlət sözü hökumət—Nazirlər Şurası mə'nasmnda işlənmişdir. [Bax: 75, 444 - 447].

16- Azərbaycan Milli Hökumətinin nazirlikləri vəzirlik, nazi-ri vəzir adlanırdılar.

17- Azərbaycan Milli Hökuməti təşkil olunandan az sonra Nüsrətülla Cahanşahlı Baş vəzirin müavini, Nurullaxan Yekani daxili işlər naziri müavini, Qulam Daneşyan, xalq qoşunları vəziri müavini, İsmayıl Bazargan kənd təsərrüfatı vəziri müavini, Əliəsgər Dibaiyan maarif vəziri müavini, Tağı Kərimi maliyyə vəziri müavini tə'yin edildilər. Eyni zamanda İbrahim Əlizadə Nami Baş vəzirliyin (Nazirlər Şurasının) ümumi işlər müdiri, Qurban Cavid Baş vəzirliyin protokol şö'bə müdiri; Mirqasım Çeşməzər, Tağı Şahin və Əli Şəmidə Baş vəzirin köməkçiləri vəzifəsinə, Kazım Haşımniya milli bankın və Adil Adilyan sənaye və sənət bankının rəisi tə'yin edildilər.